10 (1367) 13-18 mart 2025-ci il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## ÖLKƏMİZ DÜNYADA SİVİLİZASİYALAR VƏ MƏDƏNİYYƏTLƏR ARASINDA DİALOQU YAXINDAN TƏŞVİQ EDİR



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 12-də BMT Baş katibinin müavini, BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Anxel Moratinosu qəbul edib.

Migel Anxel Moratinos, ilk növbədə, BMT-nin Sivilizasiyalar Alyansının fəaliyyətinə göstərdiyi daimi dəstəyə, onun gündəliyində duran məqsəd və məramların beynəlxalq səviyyədə irəli aparılması işinə verdiyi töhfələrə görə dövlətimizin başçısına və Azərbaycan Respublikasına təşəkkürünü bildirib.

Ölkəmizlə BMT-nin Sivilizasiyalar Alyansı arasında əməkdaşlıqdan məmnunluğunu ifadə edən qonaq Azərbaycan Respublikasının Alyans tərəfindən keçirilən tədbirlərdə fəal iştirakına toxundu, ölkəmizin Alyansa könüllü maliyyə töhfələrinin qurumun fəaliyyətinə vacib dəstək olduğunu vurğulayıb.

Dövlətimizin başçısı Azərbaycanın BMT-nin Sivilizasiyalar Alyansı ilə əməkdaşlığını yüksək qiymətləndirdiyini deyib, təşkilatın fəaliyyətini bundan sonra da dəstəkləyəcəyini bildirib.

## AZƏRBAYCAN İLƏ BMT ARASINDA ƏMƏKDAŞLIQ MÜZAKİRƏ OLUNUB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 12-də BMT-nin Cenevrədəki ofisinin baş direktoru Tatyana Valovayanı qəbul edib.

Görüşdə Azərbaycan və BMT, həmçinin BMT-nin müxtəlif təşkilatları arasında əməkdaşlıqdan məmnunluq ifadə edilib.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkil etdiyi tədbirlərdə BMT-nin Cenevrədəki ofisinin rəhbərliyinin və ixtisaslaşmış strukturlarının nümayəndələrinin iştirakının vacibliyi qeyd olunub.

Söhbət zamanı BMT-nin müəyyənləşdirdiyi Dayanıqlı İnkişaf Məqsədləri ilə bağlı fikir mübadiləsi aparılıb. Azərbaycanın bu Məqsədlərin həyata keçirilməsi istiqamətində sosial, iqtisadi və digər sahələrdə yaxşı nəticələr əldə etdiyi vurğulanıb. Həmçinin ölkəmizin milli səviyyədə də dayanıqlı inkişaf məqsədini müəyyənləşdirdiyi bildirilib və bunun da nümunəvi xarakter daşıdığı qeyd olunub.

Görüşdə 2026-cı ildə Azərbaycanın UN-Habitat ilə birlikdə Ümumdünya Şəhərsalma Forumuna ev sahibliyi edəcəyi vurğulanıb, bu xüsusda birgə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb.

## Azərbaycan-İspaniya biznes forumu keçirilib

Bakıda İqtisadiyyat Nazirliyinin, İspaniyanın İqtisadiyyat, Ticarət və Biznes nazirliklərinin dəstəyi, Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi – AZPROMO, İspaniya İşəgötürənlər Təşkilatları Konfederasiyası, İspaniya İxrac və İnvestisiyalar İnstitutu və İspaniya Ticarət Palatasının birgə təşkilatçılığı ilə Azərbaycan-İspaniya biznes forumu keçirilib.



Forumda hər iki ölkədən rəsmi şəxslərlə yanaşı, enerji, tikinti, logistika, infrastruktur və digər sahələrdə fəaliyyət göstərən 90-dan çox şirkətin nümayəndələri iştirak ediblər.

Forumda çıxış edən iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev vurğulayıb ki, ölkələrimiz arasında iqtisadi əməkdaşlıq strateji səviyyəyə çatıb. Qeyd olunub ki, İspaniya ilə ticarət və investisiya əlaqələrinin genişləndirilməsi üçün böyük imkanlar var. Ötən il ölkələrimiz arasında ticarət dövriyyəsi 300 milyon dolları ötüb. Bu istiqamətdə daha sıx işbirliyinin qurulması önəm kəsb edir. Hazırda investisiya əməkdaşlığına xüsusi diqqət yetirməklə iqtisadi əlaqələrin şaxələndirilməsi üzərində iş aparılır. Bu baxımdan yaşıl enerji, informasiya texnologiyaları, infrastruktur, kənd təsərrüfatı, rəqəmsallaşma və nəqliyyat kimi sektorlarda geniş əməkdaşlıq potensialı mövcuddur.

Bildirilib ki, Azərbaycan Mərkəzi Asiya ölkələri ilə iqtisadi əlaqələrini dərinləşdirir.

İspaniya Krallığının ticarət üzrə dövlət katibi Maria Amparo Lopez Senovilla iki ölkənin işgüzar dairələri arasında əməkdaşlığın inkişafı, birgə layihələrin reallaşdırılması imkanları haqqında fikirlərini bölüşüb.

AZPROMO-nun icraçı direktoru Yusif Abdullayev və İspaniya Ticarət Palatasının baş icraçı direktoru İnmakulada Riera iki ölkənin biznes imkanları, sahibkarlar arasında əlaqələrin genişləndirilməsi perspektivlərindən danışıblar.

Tədbirdə Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov, İspaniya İşəgötürənlər Konfederasiyasının baş icraçı direktoru Marta Blanko, Azərbaycanın İspaniyadakı səfiri Ramiz Həsənov və İspaniyanın Azərbaycandakı səfiri Kristina Latorre Sanço tərəfdaşlığın inkişafı istiqamətləri barədə çıxış ediblər.

Forum çərçivəsində İspaniya şirkətləri üçün enerji və dayanıqlılıq, su, infrastruktur, tikinti və mühəndislik, texnologiya və rəqəmsallaşma mövzularında B2G sessiyaları təşkil olunub.

Tədbir B2B formatında görüşlərlə davam etdirilib.

## AZƏRBAYCAN-ŞİMALİ MAKEDONİYA MÜNASİBƏTLƏRİ YENİ İNKİŞAF MƏRHƏLƏSİNƏ QƏDƏM QOYUR



Bu gün Azərbaycanın Balkan yarımadası dövlətləri ilə əməkdaşlıq əlaqələrinin genişlənməsi xarici siyasətin prioritet istiqamətlərindən biridir.

Azərbaycan Balkanlarda yerləşən Şimali Makedoniya üçün də cəlbedici ölkədir. Oxşar tariximiz və inkişaf prosesləri, eyni zamanda, Azərbaycanın karbohidrogen ehtiyatları dövlətlərimiz arasındakı əlaqələrin inkişafı zərurətini meydana çıxarıb.

Ölkəmizin bir çox qlobal neft və qaz layihələri Şimali Makedoniyanın da maraq dairəsindədir. Həmçinin Cənub Qaz Dəhlizi, Trans Anadolu Qaz kəməri (TANAP), Trans Adriatik Qaz kəməri (TAP) layihələrində Azərbaycanın əməkdaşlıq etdiyi ölkələrin bir çoxunun da Şimali Makedoniya ilə yaxın əlaqələri mövcuddur. Bakı ilə Skopye arasında əməkdaşlıq ölkəmizin Qərbdə xüsusilə daha da aktuallaşan enerji təhlükəsizliyi məsələsində güclənən mövqeyini və rolunu bir daha ifadə etmiş olur.

Qeyd edək ki, Energetika Nazirliyinin açıqlamasına əsasən, 2028-ci ildə “Ümid” və “Abşeron” yataqlarından böyük həcmdə təbii qazın hasil ediləcək dünya bazarına çıxarılması gözlənilir. Azərbaycanın təsdiq edilmiş təbii qaz ehtiyatı 2,6 trilyon kubmetrdir ki, bu da uzun müddətdə qaz ixracının artırılmasına imkan verir. Bundan başqa, 2027-ci ilin sonunadək Azərbaycan yaşıl enerji layihələri çərçivəsində 1862 MVt külək və günəş elektrik enerjisi istehsal etməyi planlaşdırıb ki, bu da 1 milyard kubmetr “mavi yanacağa” qənaət etməyə imkan verəcək.

* * * * *

Martın 11-də Şimali Makedoniya Respublikasının Prezidenti Qordana Silyanovska-Davkova Azərbaycana səfər etmişdir.

Martın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Şimali Makedoniya Respublikasının Prezidenti Qordana Silyanovska-Davkova ilə təkbətək, sonra isə lanç əsnasında geniş tərkibdə görüşü olub.

Sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Şimali Makedoniya Respublikasının Prezidenti Qordana Silyanovska-Davkova mətbuata bəyanatlarla çıxış ediblər.

**Azərbaycan Prezidenti bəyanatla çıxış edərək, deyib:**

“Son aylarda müsbət əlamət də ondan ibarətdir ki, iki ölkə energetika sahəsində əməkdaşlığa başlamışdır. Azərbaycan qazı artıq Şimali Makedoniyanın bazarına çatdırılmışdır və bu, keçən ilin sonlarında baş verdi, bu il artıq müntəzəm olaraq Azərbaycan sizin bazarınızı təbii qazla təmin edəcəkdir. Gələcəkdə biz lazım olan həcmdə qaz təchizatını artıra bilərik. Çünki biz bu gün yeni qaz yataqlarının istismara verilməsi istiqamətində fəal iş aparırıq. Bildirməliyəm ki, hazırda Azərbaycan 12 ölkəyə təbii qaz ixrac edir və bizim müştərilərimizin coğrafi yerləşməsi də Avrasiya məkanını əhatə edir. On iki ölkədən 10 ölkə Avropa ölkəsidir. Keçən il Azərbaycan xarici bazarlara 25 milyard kubmetr qaz ilə təchiz etmişdir. Təbii ki, bizim istehsalımız bundan daha çoxdur. Çünki biz yerli tələbatı da ödəyirik. Ancaq əhatə dairəsi, qaz təchizatımızın coğrafiyasının genişləndirilməsi də gündəlikdə duran məsələdir. Avropa Azərbaycan qazına ehtiyac duyur. Təxminən üç il bundan əvvəl Bakıda imzalanmış Avropa İttifaqı ilə Azərbaycan arasında energetika sahəsində strateji tərəfdaşlıq Bəyannaməsi bunun əyani təzahürüdür. Bu gün Azərbaycan qazı bir çox Avropa ölkəsinin enerji təhlükəsizliyini təmin edir və Avropadakı tərəfdaşlarımızın xahişlərinə biz hər zaman böyük diqqətlə yanaşmışıq. Yəni, energetika sahəsində ikitərəfli formatda əməkdaşlıq bizim üçün çox önəmlidir və mən ümid edirəm ki, bu praktiki əməkdaşlıq digər sahələrdə də əməkdaşlığa gətirib çıxaracaq”.

## Strateji iqtisadi əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb

İqtisadiyyat naziri Mikayıl Cabbarov İspaniyanın ticarət məsələləri üzrə dövlət katibi Amparo Lopez Senoviya ilə görüşüb.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə martın 11-də keçirilən Azərbaycan-İspaniya biznes-forumunun iqtisadi-ticarət əlaqələrinin, o cümlədən işgüzar dairələr arasında tərəfdaşlığın daha da inkişaf etdirilməsi baxımından əhəmiyyəti vurğulanıb.

Ölkəmizin İspaniya ilə əməkdaşlığın inkişafına önəm verdiyi, keçirilən görüşlərin və aparılan müzakirələrin bu baxımdan vacibliyi diqqətə çatdırılıb. Tərəflər Azərbaycan və İspaniya arasında Strateji İqtisadi Dialoqun 1-ci iclasının sahibkarlıq subyektlərinin fəaliyyətinin təşviqində əhəmiyyəti barədə fikirlərini bölüşüblər.

Görüş çərçivəsində “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və İspaniya Krallığının İqtisadiyyat, Ticarət və Biznes Nazirliyi arasında strateji iqtisadi əməkdaşlıq haqqında Anlaşma Memorandumu” imzalanıb.

Sənədin icrası ikitərəfli biznes əlaqələrini genişləndirmək, investisiyaları artırmaq, texnologiya və bilik transferini, təcrübə mübadiləsini və birgə təşəbbüsləri təşviq etməklə əməkdaşlığı şaxələndirməyə töhfə verəcək.

## Bu il binalardan alınan yaşayış və qeyri-yaşayış sahələrinə görə 6 milyon manat ƏDV qaytarılıb

“ƏDV geri al” layihəsi çərçivəsində fiziki şəxs olan istehlakçılara pərakəndə ticarət və ya ictimai iaşə fəaliyyəti göstərən şəxslərdən alınmış mallara (neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla), tibb müəssisələri və özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslər tərəfindən göstərilən tibbi xidmətlərə görə ödənilmiş ƏDV-nin müvəkkil banklar tərəfindən qaytarılan həcmi 2025-ci ilin yanvar-fevral aylarında 30 milyon 721 min manat olub.

Dövlət Vergi Xidmətindən bildirilib ki, “ƏDV geri al” layihəsi çərçivəsində fiziki şəxs olan istehlakçılara bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən nağdsız qaydada alınmış yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilmiş ƏDV-nin yanvar-fevral ayları ərzində qaytarılan həcmi isə 6 milyon 191,4 min manat təşkil edib.

# Sosial sığorta haqları üzrə daxilolmalar 11,1 faiz artıb




Cari ilin yanvar-fevral aylarında muzdlu işçi sayının və əməkhaqqı fondunun “ağarması” şəraitində məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar 958,6 milyon manatdan çox olub.

Dövlət Vergi Xidmətindən bildirilib ki, bu mənbədən ödəmələr əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 11,1 faiz və ya 96 milyon manatdan çox artıb.

Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar ötən ilin eyni dövrü ilə müqayisədə 15 faiz artaraq 648,4 milyon manatdan çox olub. İşsizlikdən sığorta haqları üzrə daxilolmalar 2024-cü ilin müvafiq dövrünə nisbətən 15,7 faiz artaraq 34,4 milyon manat, qeyri-büdcə təşkilatları üzrə ödəmələr isə 17,2 faiz artaraq 26,7 milyon manat təşkil edib.

Həmin dövr ərzində icbari tibbi sığorta haqları üzrə daxilolmalar ötən ilin eyni dövrü ilə müqayisədə 11,6 faiz artaraq 171 milyon manat olub. Qeyri-büdcə təşkilatları üzrə ödəmələr 10,8 faiz artıb və 122,3 milyon manat təşkil edib.

# 2 ayda vətəndaşlara geri qaytarılan ƏDV-nin məbləği 37 milyona çatıb

Bu ilin yanvar-fevral aylarında pərakəndə ticarət və ya ictimai iaşə fəaliyyəti göstərən şəxslərdən alınmış mallara (neft və qaz məhsulları, avtomobillər, alkoqollu içkilər və tütün məmulatları istisna olmaqla), tibb müəssisələri və özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslər tərəfindən göstərilən tibbi xidmətlərə görə ödənilmiş ƏDV-nin 30,7 milyon manatdan çox hissəsi fiziki şəxs olan istehlakçılara geri qaytarılıb.

Bu barədə Dövlət Vergi Xidmətindən məlumat verilib.

Məlumata görə, bununla yanaşı, “ƏDV geri al” layihəsi çərcivəsində fiziki şəxs olan istehlakçılara bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən nağdsız qaydada alınmış yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilmiş ƏDV-nin yanvar-fevral ayları ərzində qaytarılan həcmi 6,2 milyon manata yaxın olub.

## Ötən il tədiyə balansının cari əməliyyatlar balansının profisiti ÜDM-in 6,3 faizini təşkil edib

Ötən ildə tədiyə balansının cari əməliyyatlar balansının profisiti 4,7 milyard dollar və ya ÜDM-in 6,3 faizini təşkil edib.

Azərbaycan Mərkəzi Bankından AZƏRTAC-a bildirilib ki, Dövlət Gömrük Komitəsinin məlumatında 2025-ci ilin yanvar ayında xarici ticarət balansında 1 milyard dollar məbləğində müsbət saldo qeydə alınıb. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 40,5 faiz çoxdur. Son qiymətləndirmələrə görə, 2025-ci ilin yekunu üzrə cari hesab proqnozunda 2024-cü illə və daha öncəki proqnozla müqayisədə yaxşılaşma ehtimalı var.

Pul siyasəti alətləri maliyyə bazarlarında gedən proseslər və bank sisteminin likvidlik mövqeyindəki dəyişikliklər nəzərə alınmaqla tətbiq edilir. Qısamüddətli pul bazarında orta faizlər Mərkəzi Bankın faiz dəhlizi daxilində hərəkət edir. Qeyd edək ki, ötən ilin sonunda hökumət hesabları qalıqlarının azalması bank sistemindəki likvidliyə artırıcı təsir edib. Bunun nəticəsi olaraq cari ilin əvvəlində banklararası pul bazarında faizlər pik (2024-cü ilin dekabrında 1D AZIR 7,68 faiz) səviyyə ilə müqayisədə azalıb. Belə ki, yanvar və fevral aylarında orta günlük 1D AZIR ötən ilin dekabr ayı ilə müqayisədə 0,6 faiz bəndi və 0,2 faiz bəndi az olub. Cari ildə pul siyasətinin əməliyyat çərçivəsinin təkmilləşdirilməsi işləri də davam etdirilir. 2025-ci ilin fevral ayında daimi imkan və açıq bazar əməliyyatlarının aparılması şərtlərində dəyişikliklər edilib. Belə ki, bir günlük daimi imkan depozit və əks-repo əməliyyatların müddəti 24 saatdan 1 gecəliyə keçirilib. Eyni zamanda not hərraclarında minimum iştirakçı sayına qoyulan tələb aradan qaldırılıb.

Potensial inflyasiya təzyiqləri yarada biləcək qlobal risklərə mövcud geosiyasi gərginlik və ticarət müharibələri fonunda beynəlxalq əmtəə bazarlarında qiymətlərin mümkün dəyişkənliyi aiddir. Yüksək qlobal qeyri-müəyyənlik, xüsusən də bəzi ölkələrdə milli valyutaların məzənnələrindəki dəyişikliklərin və tarif artımlarının inflyasiya proseslərinə təsirlərinin qiymətləndirilməsi üçün faiz dəhlizi parametrlərinin dəyişdirilməsində pauzanın götürülməsi zərurəti yaranır. İnflyasiyanı artıra biləcək daxili risk faktorları kimi isə xərc amillərinin aktivləşməsi və məcmu tələbin izafi artımı qeyd oluna bilər. Həmçinin kredit aktivliyinin qiymət sabitliyinə mümkün təsirləri daim izlənilir.

## Pirallahı Sənaye Parkında indiyədək 61 milyon manatlıq məhsul istehsal edilib

İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Pirallahı Sənaye Parkında investisiya həcmi 121 milyon manatdan çox olan 7 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. Agentlikdən bildirilib ki, sahibkarlar tərəfindən görülmüş işlərə ümumilikdə 43 milyon manatdan çox investisiya yatırılıb, 160-dan çox daimi iş yeri yaradılıb.

Pirallahı Sənaye Parkında indiyədək 61 milyon manatlıq məhsul istehsal edilib.

Qeyd edək ki, Pirallahı Sənaye Parkı dövlət başçısının 2016-cı il 14 sentyabr tarixli Sərəncamı ilə yaradılıb. Park 30 hektar ərazini əhatə edir.




## Mərkəzi Bank emissiya prospektləri ilə bağlı yeni hədəflər müəyyənləşdirir

“Mərkəzi Bank cari ildə emissiya prospektlərindəki nöqsanların minimallaşdırılması üçün iki hədəf müəyyənləşdirib”.




Bu barədə Mərkəzi Bankın Kapital Bazarı Fəaliyyətinə Nəzarət Departamentinin Lisenziyalaşdırıma üzrə Qeydiyyat şöbəsinin rəisi Asəf Məmmədov Bakıda keçirilən 12-ci Beynəlxalq "Caspian Investment Forum"unda deyib.

O, emissiya prospektinin tərtib edilməsinin mürəkkəb bir proses olduğunu bildirib:

“Bununla bağlı biz daim emitentlərə lazımi dəstəyi göstərməyə çalışmışıq. Ötən il kapital bazarı üzrə rekord sayda - 65 emissiya prospektini təsdiq etmişik. Biz bununla kifayətlənmirik. Cari ildə bu sahədə nöqsanların minimallaşdırılması üçün özümüzə iki hədəf müəyyən etmişik.

Bunlardan biri ən çox rast gəlinən nöqsanlarla bağlı bazar iştirakçılarına təqdimatın keçirilməsidir. Artıq bu üzrə müvafiq işlərə başlamışıq. İkinci planımız emissiya prospektləri ilə bağlı metodoloji dəstək göstərilməsidir. Bununla bağlı da biz həm emissiya prospekti, həm də bazar emissiya prospekti və baza informasiya memorandumu üzrə sənədlərin, təqdimatın hazırlanmasını nəzərdə tuturuq. Gələcəkdə biz süni intellekt texnologiyalarının da bu sahədə istifadəsi planlaşdırılır”.

## Pərakəndə ticarət şəbəkəsində əhalinin hər bir nəfəri 452 manatlıq məhsul alıb

Pərakəndə ticarət şəbəkəsində əhalinin hər bir nəfəri 452 manatlıq məhsul alıb.



Cari ilin yanvar-fevral aylarında pərakəndə ticarət şəbəkəsində istehlakçılara 9 milyard 241,2 milyon manatlıq, o cümlədən 5 milyard 66,9 milyon manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 4 milyard 174,3 milyon manatlıq qeyri-ərzaq malları satılıb.

Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, ötən ilin yanvar-fevral ayları ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə 3,8 faiz, o cümlədən ərzaq məhsulları, içkilər və tütün məmulatları üzrə 1,8 faiz, qeyri-ərzaq malları üzrə 6,2 faiz artıb.

Yanvar-fevral aylarında alıcıların pərakəndə ticarət şəbəkəsində aldıqları mallara xərclədiyi vəsaitin 50 faizi ərzaq məhsullarının, 4,8 faizi içkilər və tütün məmulatlarının, 15,1 faizi toxuculuq məhsulları, geyim və ayaqqabıların, 5,7 faizi avtomobil benzini və dizel yanacağının, 4,6 faizi elektrik malları və mebellərin, 2,5 faizi əczaçılıq məhsulları və tibbi ləvazimatların, 1,3 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 16 faizi isə digər qeyri-ərzaq mallarının alınmasına sərf olunub.

Hesabat dövründə qeyri-dövlət sektorunda fəaliyyət göstərən təsərrüfat subyektləri tərəfindən satılmış malların dəyəri əvvəlki ilin eyni dövrü ilə müqayisədə real ifadədə 3,8 faiz artaraq ümumi pərakəndə ticarət dövriyyəsinin 99,7 faizini təşkil edib.

2024-cü ilin yanvar-fevral ayları ilə müqayisədə bu ilin eyni aylarında pərakəndə ticarət dövriyyəsi real ifadədə müəssisələr üzrə 7,6 faiz, fərdi sahibkarlar üzrə 1,7 faiz, bazar və yarmarkalarda isə 3,4 faiz artıb.

Hesabat dövründə pərakəndə ticarət şəbəkəsində əhalinin bir nəfəri orta hesabla ayda 451,8 manatlıq, o cümlədən 247,7 manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 204,1 manatlıq qeyri-ərzaq malları alıb.

# Azərbaycanda ÜDM artıb

Cari ilin yanvar-fevral aylarında ölkədə 19 milyard 72,2 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 0,2 faiz çox ümumi daxili məhsul istehsal olunub.

Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 2,7 faiz azalıb, qeyri-neft-qaz sektorunda isə 1,7 faiz artıb.

ÜDM istehsalının 38,5 faizi sənaye, 10,1 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 6,9 faizi nəqliyyat və anbar təsərrüfatı, 4,6 faizi tikinti, 2,9 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,5 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,9 faizi informasiya və rabitə sahələrinin, 22 faizi digər sahələrin payına düşüb, məhsula və idxala xalis vergilər ÜDM-in 10,6 faizini təşkil edib.




Əhalinin hər nəfərinə düşən ÜDM 1864,7 manata bərabər olub.

## 2024-cü ilin arıçılıq təsərrüfatı ilə bağlı statistikası açıqlanıb

Ötən il 30 min 601 təsərrüfatda mövcud olan 579 min arı ailəsindən 5166,3 ton bal, 132,1 ton mum, 8,5 ton vərəmum, 16,8 ton güləm və 239,3 kiloqram arı südü əldə olunub.

Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, istehsalçılar üzrə balın 1 kiloqramının orta satış qiyməti 28,6 manat, mumun - 16,5 manat, vərəmumun - 109,7 manat, güləmin - 140,9 manat, arı südünün 1 qramının orta satış qiyməti isə 7 manat olub.

2023-cü illə müqayisədə 2024-cü ildə arı ailələrinin sayı 3,1 faiz, mum istehsalı 23,5 faiz, vərəmum istehsalı 43 faiz, arı südü istehsalı 14,9 faiz, arıçılıqla məşğul olan təsərrüfatların hər birinə orta hesabla düşən arı ailələrinin sayı 2,4 faiz azalsa da, bal istehsalı 13,5 faiz, güləm istehsalı 88,8 faiz artıb.

Arı ailələrinin sayında və bəzi arıçılıq məhsullarının istehsalında azalma əsasən arı xəstəlikləri ilə əlaqədar olub.



# AMALINA SADİQLİK NÜMUNƏSİ

*Həyatda elə adamlar var ki, onların keçdiyi həyat yolu başqaları üçün bir nümunə, örnəkdir. Belə şəxsiyyətlərdən biri də Eldar Rza oğlu İbrahimovdur. Mənim Eldar müəllimlə tanışlığım ötən əsrin 90-cı illərinin əvvəlinə, onun Naxçıvan Muxtar Respublikası Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində işlədiyi dövrə təsadüf edir.*

O vaxtlar mən, "Azərittifaq"ın İdarə Heyəti sədrinin müavini vəzifəsində çalışırdım və blokadada olan Naxçıvana müəyyən köməklik göstərmək üçün tez-tez Naxçıvana gedirdim. Eldar Rza oğlu İbrahimov həmin vaxt həm də Azərbaycan Respublikası Ali Sovetinin deputatı idi və Ali Sovetin televiziyada birbaşa yayımlanan sessiya iclaslarında hamı görürdü ki, Eldar müəllimin cəsarətli çıxışları, məsələyə obyektiv yanaşması qorxmaz şəxsiyyət olmasından xəbər verir.

O dövrdə Naxçıvandan Azərbaycan Ali Sovetinə deputat seçilmiş Heydər Əliyevlə sessiya iclaslarında ən çox ünsiyyət saxlayan, həmişə onunla birlikdə olan da Eldar İbrahimov idi. Çünki həmin dövrdə Heydər Əliyevin adını çəkmək, onayaxın olmaq, ünsiyyət saxlamaq mövcud iqtidar və Xalq Cəbhəsi üzvləri tərəfindən çox sərt qarşılanır, hətta həmin adamı ölümlə hədələyirdilər. Eldar müəllim isə öz həyatını riskə ataraq heç kimdən və heç nədən çəkinmədən Heydər Əliyevə olan isti münasibətini açıqdan-açığa nümayiş etdirməkdə davam edir, müstəqil Azərbaycan Respublikasının gələcək taleyinin Heydər Əliyevlə bağlı olacağını bildirirdi.

*Eldar müəllimin həyatda və cəmiyyətdə belə mübariz olması, ictimai mənafeyi öz mənafeyindən üstün tutması, obyektivliyi, dövlətinə və xalqına sədaqətlə qulluq etməsi onun tərcümeyi-halına nəzər saldıqda da özünü bütünlüklə büruzə verir. Atasını erkən (13 yaşında) itirib, çoxuşaqlı ailədə (7 qardaş, bir bacı) böyüyən Eldar İbrahimov tezliklə ailə qayğılarını öz üzərinə götürmüşdür. O, əmək fəaliyyətinə fəhləlikdən başlayaraq Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti sədrinin birinci müavini kimi məsul vəzifəyə yüksəlmiş, 1985-cı ildə Naxçıvan MSSR Ali Sovetinin deputatı, 1990-cı ildə Azərbaycan SSR Ali Sovetinin və 1995-2025-ci illərdə I-VII-ci çağırış müstəqil Azərbaycan Respublikası Milli Məclisinin deputatı, həm də komitə və komissiya sədri vəzifələrinə seçilməsi dediklərimizi sübut edir. Onu da qeyd etmək lazımdır ki, belə parlaq həyat yolu keçmək heç də hamıya qismət olmur. Eldar müəllimin əldə etdiyi bu böyük nailiyyətlərin əsasında onun əməksevərliyi, tutduğu vəzifədən asılı olmayaraq işə vicdanla və məsuliyyətlə yanaşması, əhatəsində olduğu adamlardan və iş yoldaşlarından daim nəsə öyrənməyə can atması, öz bilik və bacarığını müntəzəm olaraq başqaları ilə bölüşməsi dayanır.*

Mən Milli Məclisdə deputat kimi fəaliyyətə başlayana kimi 1995-2004-cü illərdə Eldar müəllimin rəhbərliyi ilə Aqrar siyasət komitəsində aqrar məsələlərə dair xeyli sayda qanunlar hazırlanaraq Milli Məclis tərəfindən qəbul edilmişdi. Bunlardan"Torpaq islahatı haqqında", "Aqrar islahatların əsasları haqqında", "Sovxoz və kolxozların islahatı haqqında"qanunları göstərmək olar. Bu qanunlar demək olar ki, bazar münasibətlərinə keçidlə bağlı aqrar sahədə inqilabi dəyişikliklər yaradan tarixi qanunlardır. Belə ki, bu qanunlar müstəqillik əldə etmiş Azərbaycanda 1995-ci ildə qəbul edilmiş Konstitusiyaya uyğun olaraq ölkə iqtisadiyyatını bazar münasibətləri əsasında qurmaq istiqamətində qəbul edilən ilk hüquqi sənədlərdir. Məhz bu qanunlar və onların icrası ilə bağlı qəbul edilmiş digər hüquqi aktların əsasında sovxozlar və kolxozlar ləğv edilərək onların əmlakı və torpağı kolxoz üzvlərinə, habelə kənddə yaşayan Azərbaycan Respublikasının vətəndaşlarına pulsuz olaraq paylanmışdır. Keçmiş SSRİ-də Heydər Əliyevin təşəbbüsü ilə baş tutan bu hadisə - torpaq islahatı, Müstəqil Dövlətlər Birliyi məkanında ilk dəfə olaraq Azərbaycanda həyata keçirildi və bu, tezliklə öz müsbət nəticələrini verdi. Bununla da respublikamızda iqtisadiyyat sahəsində ilk dəfə olaraq kənd təsərrüfatında islahatlar başladı və özəl sektorun təməli qoyularaq sahibkarlıq inkişaf etməyə başlamışdır.

Eldar İbrahimov Azərbaycan Respublikası Prezidentinin təsdiq etdiyi qanunlarda nəzərdə tutulan maddələrin yerinə yetirilməsinə də böyük diqqət yetirir və qanunlara əsassız dəyişikliyin aparılmasına yol vermirdi. Yadımdadır, bir dəfə "Taxıl haqqında" Qanunun taxıl fondunun yaradılması haqqında maddəsinin qanundan çıxarılması haqqında Milli Məclisə qanun layihəsi daxil olmuşdu. Layihə müəllifləri bunu ölkəmizdə taxıl istehsalının az olması və fonda toplanacaq məhsulun saxlanması üçün müəyyən vəsait xərclənməsi ilə əsaslandırmağa çalışırdılar. Layihə Aqrar siyasət komitəsinin iclasında müzakirə ediləndə Eldar müəllim bunun əleyhinə çıxış etdi və bildirdi ki, aparılan aqrar islahatlar nəticəsində ölkəmizdə özəl sektorda məhsuldarlığın yüksəlməsi hesabına taxıl istehsalı ildən-ilə artır və eyni zamanda ölkə rəhbərliyinin həyata keçirdiyi siyasət sayəsində respublikamızın büdcəsinə neft və qaz ixracından böyük həcmdə vəsait daxil olmağa başlayıb. Bu vəsait hesabına xarici bazarlarda taxıl ucuz olanda bizə lazım olan qədər taxılı idxal edib onu



saxlaya bilərik. Bununla da dövlət qarşısında duran ən ümdə vəzifə olan ölkə əhalisinin əsas ərzaq məhsulu olan taxıla tələbatını təmin edər və əhalimiz çörəkdən əziyyət çəkməz. Komitə üzvləri də Eldar müəllimin bu fikrinidəstəklədilər və layihə qəbul olunmadı.

Hadisələrin sonrakı gedişi Eldar İbrahimovun uzaqgörən siyasət yeritdiyini və xalqın mənafeyinə xidmət edən mövqe tutduğunu bir daha təsdiq etdi. O, həmişə bizə deyirdi ki, hər bir dövlət sənədinin hazırlanma qaydası olduğu kimi, qanunlarında öz yazılış qaydası var. Qanunda yazılan hər bir cümlə çox qısa, aydın və hamı üçün anlaşılan olmaqla özündə hüquqi norma əks etdirməlidir. Elə etmək lazımdır ki, cümlədə işlədilən sözlər müxtəlif mənalar ifadə etməsin və nəzərdə tutulan məna tam və konkret əhatə olunsun. Əks halda qanunun maddələri üzrə xalqın ziyanına subyektiv fikirlər formalaşar ki, bu da yolverilməzdir.

Eldar İbrahimov qanun layihələrinin hazırlanmasına və müzakirəsinə çox böyük məsuliyyət və tələbkarlıqla yanaşırdı. O, tövsiyə edirdi ki, istər qanun layihəsi hazırlanarkən və istərsə də müzakirə edilərkən daha çoxvə müxtəlif düşüncə tərzinə malik mütəxəssislərin iştirakına imkan yaratmaq lazımdır. Çünki fikirlər nə qədər çox və müxtəlif olarsa, Milli Məclisin plenar iclasının müzakirəsinə təqdim edəcəyimiz qanun layihəsi bir o qədər mükəmməl və təkmil olar. Bu, həqiqətən də belə idi. Yadımdadır, mənim təşəbbüsüm və komitə sədrinin dəstəyi ilə işçi qrupu tərəfindən hazırlanmış "Kənd təsərrüfatı kooperasiyası haqqında" qanun layihəsi Eldar İbrahimovun tapşırığı əsasında müxalif yönümlü qeyri-hökumət təşkilatlarının da iştirakı ilə ictimai müzakirəyə çıxarıldı. Bu təşkilatların nümayəndələri qanun layihəsi Aqrar siyasət komitəsində müzakirə edilərkən də dəvət olundular və onların verdikləri bəzi təkliflər nəzərə alındı.

*Eyni zamanda, Eldar İbrahimovun qanun layihəsi hazırlanarkən irəli sürdüyü tələblərdən biri də həmin məsələyə dair başqa ölkələrin təcrübəsini öyrənmək və respublikamızın şəraitinə uyğun tətbiqini nəzərdə tutmaq idi. Bu məqsədlə internetin imkanlarından və layihənin məzmununa dair digər mənbələrdən toplanılan materiallardan geniş istifadə edilirdi. Bəzi hallarda isə hazırlanacaq qanun layihəsinin həsr olunduğu məsələnin yüksək inkişaf etdiyi ölkələrə ezamiyyətlər təşkil olunurdu. "Kənd təsərrüfatı kooperasiyası haqqında" qanunun respublikamızda aqrar sahənin yeni texnika və texnologiyalar əsasında inkişaf etdirilməsində böyük əhəmiyyət kəsb etdiyini nəzərə alaraq deputatlardan mən və Milli Məclisin əməkdaşlarından ibarət bir qrup Eldar İbrahimovun rəhbərliyi ilə Almaniya Federativ Respublikasına ezam olundu. Almaniyanın seçilməsi isə təsadüfi deyildi. Çünki kənd təsərrüfatı kooperasiyasının inkişafı ilk dəfə Almaniyada vüsət almış və hazırda çox geniş yayılmışdır. Onların bu təcrübəsindən qanun layihəsinin təkmilləşdirilməsində istifadə olundu.*

Eldar müəllim qanun layihələri hazırlanarkən onların müasir şəraitin və beynəlxalq təşkilatların tələblərinə uyğun olmasına və ölkəmizin milli maraqlarının müdafiəsinə də xüsusi fikir verir və komitə üzvlərindən bunları nəzərə almağı tələb edirdi. Belə ki, "Baytarlıq haqqında", "Fitosanitar nəzarəti haqqında", "Ekoloji təmiz kənd təsərrüfatı haqqında" və "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında" qanun layihələri hazırlanarkən bu məsələlərə çox həssaslıqla yanaşıldı və xüsusi diqqət yetirildi. Bunun nəticəsi idi ki, "Baytarlıq haqqında" və "Fitosanitar nəzarəti haqqında" qanun layihələri qüvvəyə mindikdən sonra ingilis dilinə tərcümə edilərək müvafiq beynəlxalq təşkilatlara göndərildi və həmin təşkilatlar tərəfindən yüksək qiymətləndirildi. Məhz ölkəmizdəkənd təsərrüfatı məhsullarının idxalı və ixracı bu qanunlar əsasında tənzimlənir vəxarici ölkələrlə qanunvericilik baxımından heç bir problem yaşanmır.

Eldar İbrahimov ölkəmizdə turizmin inkişafının iqtisadiyyatın prioritet sahələrindən biri olduğunu nəzərə alaraq respublikamıza daha çox turistin gəlməsinə əlverişli şəraitin yaradılması üçün "Ekoloji təmiz kənd təsərrüfatı haqqında" qanunun qəbul edilməsini məsləhət görmüşdür. Çünki insanlar hazırda ekoloji təmiz kənd təsərrüfatı məhsulları istehlak etməyə üstünlük verdiklərinə görə turistlər əsasən bu məhsulları istehsal edən ölkələrə üz tuturlar. Ona görə də bu qanun layihəsi hazırlanarkən beynəlxalq təcrübə öyrənilməklə ekoloji təmiz kənd təsərrüfatı obyektlərinin yaradılması, fəaliyyəti, onlara olan tələblər və hüquqi normalar layihədə öz əksini tapmışdır. Hazırda ölkəmizin turistləri özünə cəlb etməsinin əsas səbəblərindən biri də bu qanunun mövcudluğu və ona ciddi əməl olunmasıdır.

Eldar İbrahimovun işə məsuliyyətlə yanaşması, Milli Məclisin işinin təşkilində və deputatlıq fəaliyyətində əldə etdiyi nailiyyətlər, Milli Məclis üzvləri və Aparatın əməkdaşları arasında böyük hörmət və nüfuz sahibi olması, 40 illik deputatlıq təcrübəsi (1985-2025-ci illər), seçicilərinə göstərdiyi diqqət və qayğı onun belə uzun müddət ərzində seçkilərdə böyük səs çoxluğu ilə qələbə qazanmasına möhkəm zəmin yaratmışdır. Onun bu şəxsi və mənəvi keyfiyyətləri nəzərə alınaraq 2020-ci və 2024-cü illərdə VI-cı və VII-ci çağırış Milli Məclisə keçirilən seçkilərdən sonra Eldar Rza oğlu İbrahimov yekdilliklə Milli Məclisin İntizam komissiyasına sədr seçilmişdir. Eldar müəllim bu komissiyaya rəhbərliyə başladığı ilk gündən komissiyanın nüfuzunu qaldırmaq, Milli Məclis üzvlərinin deputatlıq fəaliyyətini daha da yüksəltmək üçün bir sıra təkliflər hazırlamağa başladı. Onun verdiyi təklif əsasında İntizam komissiyasının Əsasnaməsi hazırlanıb qəbul edildi (Əvvəllər belə bir əsasnamə olmamışdır). Komissiyanın işinin daha da yaxşılaşdırmaq, qəbul etdiyi qərarların qanunauyğunluğunu möhkəmləndirmək üçün bu komissiyanın fəaliyyətini tənzimləyən müvafiq qanunlarda əsaslandırılmış dəyişikliyin aparılmasına zərurət olması barədə Milli Məclisin rəhbərliyinə ətraflı məlumat təqdim etmişdir.

Eldar İbrahimov Milli Məclisin deputatı olaraq, həm də ATƏT (Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı) Parlament Assambleyasında 1996-2020-ci illərdə Azərbaycan parlament nümayəndə heyəti sədrinin müavini kimi də fəaliyyət göstərib. O, bütün bu illər ərzində ATƏT-in ildə 2-3 dəfə keçirilən bütün iclaslarında müzakirə olunan məsələlərə dair daim çıxışlar edərək, respublikamızın mənafeyini müdafiə etməkdə fəal iştirak etmişdir. Xüsusilə, ermənilərin ölkəmizə qarşı heç bir əsası olmayan uydurma və böhtan xarakterli çıxışlarına tutarlı və müvafiq rəsmi sənədlərlə təsdiq olunan konkret faktlar əsasında cavablar verərək, Avropanın müxtəlif ölkələrindən olan parlament nümayəndələrinin nəzərinə çatdırmışdır. Eldar müəllim ölkəmizdə müxtəlif dinə, dilə və ənənələrə malik bir çox millətlərdən olan insanların uzun müddətdir ki, Azərbaycan Konstitusiyasının onlara verdiyi bütün hüquqlardan azərbaycanlılarla eyni səviyyədə istifadə edərək dinc və sərbəst yaşadıqlarını, respublikamızda multikulturalizmin əsrlər boyu və hazırda da bərqərar olduğunu təsdiq edən, xarici mətbuatda dərc olunan sənədləri bu iclaslarda dəfələrlə nümayiş etdirmişdir.

*Eldar müəllim hal-hazırda Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin tərkibində müzakirə olunan məsələlərə dair ölkəmizin mövqeyini əks etdirən çıxışları ilə fəal iştirak edir.*

Eldar Rza oğlu İbrahimov deputat olduğu bütün bu illər ərzində qanunvericilik fəaliyyəti ilə yanaşı, həm də seçildiyi Naxçıvan şəhəri 4 nömrəli seçki dairəsindən olan seçicilərin problemlərinə də diqqət və qayğı ilə yanaşmışdır. O, ünvanına daxil olan məktubları əlaqədar təşkilatlara göndərərək, məsələnin həllinə nail olmaq üçün onu nəzarətə götürür, haqqın və ədalətin bərqərar olması naminə əlindən gələni heç vaxt əsirgəmir. Bir çox hallarda isə problemin həlli üçün şikayət olunan təşkilatın rəhbərinə telefon açaraq, məsələnin qanunauyğun araşdırılıb müvafiq tədbir görülməsini xahiş edir. Eldar müəllimə ərizə və şikayətlər yalnız özünün deputat seçildiyi dairədə yaşayan seçicilərdən yox, həm də Azərbaycanın istənilən bölgəsindən ünvanlanır və o, heç bir ayrıseçkilik salmadan onların hamısına eyni diqqət və həssaslıqla yanaşır.

Eldar Rza oğlu İbrahimov tutduğu vəzifənin böyük və kiçikliyindən asılı olmayaraq, işlədiyi bütün kollektivlərdə özünün işgüzarlığı, tapşırılan işə böyük məsuliyyətlə yanaşması, bütün bilik və təcrübəsini gördüyü işin yüksək səviyyədə icra olunmasına həsr etmək bacarığı ilə seçildiyindən həmişə həmkarları arasında böyük nüfuz və hörmət sahibi olmuşdur. Elə bu səbəbdən də Eldar müəllim Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı və sonra sədri işləyəndə Ulu öndərin diqqətini cəlb etmişdir. Heydər Əliyev Naxçıvanda işlədiyi müddətdə Muxtar Respublikanın ərazi bütövlüyünün və təhlükəsizliyinin təmin olunmasında, Ali Məclisdə qərarların qəbul edilməsində, Azərbaycanda ilk dəfə kənd təsərrüfatında islahatların Naxçıvan Muxtar Respublikasında aparılmasında və digər vacib məsələlərin həll edilməsində ən çox etibar etdiyi və etimad göstərdiyi şəxs məhz Eldar Rza oğlu İbrahimov olmuşdur. Eldar müəllim bu qısa müddət ərzində Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasında uğurla həyata keçirdiyi heyrətamiz işlərdən, onun Azərbaycan xalqı və dövləti üçün çox cəsarətli addımlar atmasından, Ümummilli liderin həyat və yaradıcılığına həsr olunan televiziya verlişlərində, konfrans və görüşlərdə bu gün də böyük həvəslə danışır, qəzet və jurnallarda əhatəli məqalələrlə çıxış edir. Onu da qeyd etmək lazımdır ki, Eldar İbrahimov Heydər Əliyevin ona verdiyi bütün tapşırıqların, o cümlədən Azərbaycan Respublikasında xaos və özbaşınalığın hökm sürdüyü və xalq cəbhəsinin yalançı nüfuzunun pik həddə çatdığı vaxtlarda Naxçıvan üçün böyük əhəmiyyət kəsb edən və həm də həyati təhlükə yaradan tapşırıqları da çox yüksək səviyyədə icra etmişdir. *Yeni partiya yaratmağın vacib olduğunu Heydər Əliyevə bildirərək, 1992-ci ilin noyabr ayında Yeni Azərbaycan Partiyasının yaradılmasına həsr olunan təsis konfransının Naxçıvan şəhərində keçirilməsinin bütün məsuliyyətini Ulu öndərin tapşırığına uyğun olaraq öz üzərinə götürən və onu uğurla yerinə yetirən də məhz Eldar İbrahimov olmuşdur. Ona görə Eldar müəllim Heydər Əliyevin ən sadiq silahdaşlarından olmuş və Ulu öndərin Eldar İbrahimova olan xoş münasibəti bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları tərəfindən davam etdirilir.*

Eldar müəllim həmişə yüksək nəticələr əldə etmək üçün daim çalışır və hazırda da bu istiqamətdə yorulmaq bilmədən işləyir. Onun bu əməksevərliyi onu daim müşayiət edir və uğur gətirir. Eldar İbrahimov Aqrar siyasət komitəsinin sədri olduğu müddətdə kənd təsərrüfatı üzrə 45 qanunun qəbul olunmasına, 27 beynəlxalq sazişin və qanunlara 182 dəyişiklik və əlavələrin edilməsinə nail olmuşdur. Buna baxmayaraq, o, ölkədə dövlətin qarşısında duran əsas vəzifələrdən birinin - əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsinin vacibliyini nəzərə alaraq kənd təsərrüfatının elmi əsaslarla inkişafına və bu sahədə möhkəm iqtisadi təməlin yaradılmasına töhfə verməyi özünə borc bilmişdir. Bu məqsədlə o, geniş elmi araşdırmalar, iqtisadi təhlillər, hesablamalar və digər xarakterli tədqiqatlar apararaq əvvəlcə "Bazar münasibətləri şəraitində kənd təsərrüfatında texniki xidmətin təşkilinin təkmilləşdirilməsi" mövzusunda 1997-ci ildə namizədlik dissertasiyası, 2011-ci ildə isə "Aqrar sahibkarlığın inkişafının iqtisadi problemləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə edərək iqtisad üzrə elmlər doktoru elmi dərəcəsi almışdır.

*Ulu öndər Heydər Əliyev və hörmətli Prezidentimiz İlham Əliyev cənablarının ideyalarına həmişə sadiq olan Eldar Rza oğlu İbrahimov əməksevər, yüksək insani keyfiyyətlərə malik, tapşırılan işə böyük diqqət və məsuliyyətlə yanaşan, dövlətinə və xalqına daim sədaqətlə xidmət edən, həmkarları və əməkdaşları ilə səmimi ünsiyyət saxlayan böyük dövlət və ictimai xadimdir. Eldar müəllim 2020-ci ildən Azərbaycan Ağsaqqallar Şurasının sədrinin müavini kimi də şuranın işində çox fəal iştirak edir, xüsusilə gənc nəslin azərbaycançılıq və vətənpərvərlik ruhunda böyüməsinə dəyərli töhfələr verir.*

Eldar Rza oğlu İbrahimov Azərbaycan Respublikasında aqrar sektorun inkişafındakı xüsusi xidmətlərinə görə "Şöhrət" ordeni, Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə "Şərəf" ordeni, Yeni Azərbaycan Partiyasının 30 illiyi münasibəti ilə Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə və bir çox medallarla təltif edilmişdir. 80 il əvvəl - 1945-ci il martın 12-də Naxçıvan Muxtar Respublikasının Babək rayonun Cəhri kəndində adi kəndli ailəsində anadan olan Eldar İbrahimov çox şərəfli bir həyat yolu keçmişdir. O, mənim düşüncəmə heç də hamısını yazıya köçürə bilmədiyim əsl insanlıq və dostluq simvoluna malik, amalına sadiq, elini-obasınıv ə vətənini sevən, xalqı və dövləti üçün yorulmaq bilmədən çalışan, ölkəsinə layiqli övladlar və gənclər tərbiyə edən, yüksək intellektə sahib bir şəxsiyyət kimi həkk olunmuşdur.

**Eldar Quliyev,**
**Milli Məclisin Hesablayıcı komissiyasının sədri,**
**Azərbaycan Ağsaqqallar Şurasının sədri, professor**

# "Bu biznes forum əməkdaşlıq üçün mühüm platformadır"




"Bakıda keçirilən Azərbaycan-İspaniya biznes forumu ölkələrimiz arasında ikitərəfli əlaqələri gücləndirmək və əməkdaşlıq üçün yeni yolları araşdırmaq üçün mühüm platformadır".

Bu barədə KOBİA İdarə Heyətinin sədri Orxan Məmmədov Azərbaycan-İspaniya biznes forumunda deyib.

"Ötən il İspaniyaya məhsuldar səfərimiz olub. İspaniyanın Sənaye və Turizm Nazirliyi, Ticarət Palatası, İşəgötürənlər və Sənaye Konfederasiyası, İspaniya İxrac və İnvestisiya Təşkilatı, Milli İnnovasiya Şirkəti kimi qurumlarla ilkin əlaqələrimiz olub. Məhsuldar müzakirələr gələcək əməkdaşlığın əsasını qoyub və ümid edirik ki, ölkələrimizin bizneslərinə fayda verəcək birgə təşəbbüslər üzərində işləyəcəyik. KOBİA olaraq biz Azərbaycanda sahibkarlara və bizneslərə öz bizneslərini qurmaq, KOB-ların resurslara çıxışını təmin etmək, təlim və potensialın gücləndirilməsi proqramlarını asanlaşdırmaq kimi dəstək veririk. Əsas təşəbbüslərimizdən biri həm yerli, həm də xarici investorlar üçün "bir pəncərə" sistemi kimi nəzərdə tutulmuş dövlət xidmətlərini, biznesin qeydiyyatını və investisiyaların asanlaşdırılmasını sadələşdirən "KOB evi" modelidir. Artıq fəaliyyət göstərən 3 "KOB evi" ilə bu tipli biznesi qurmağı, inkişaf etdirməyi və idarə etməyi asanlaşdırır", - deyə O.Məmmədov qeyd edib.

# "Ötən il Azərbaycan və İspaniya arasında ticarət dövriyyəsi 310 milyon dollar olub"



Bunu iqtisadiyyat nazirinin birinci müavini Elnur Əliyev Azərbaycan-İspaniya biznes forumunda deyib.

O qeyd edib ki, ötən il ölkələrimiz arasında ticarət dövriyyəsi təxminən 310 milyon dollar təşkil edib: "İspaniya Azərbaycanın və Avropa İttifaqının əsas iqtisadi tərəfdaşlarından biridir. Ölkələrimiz arasında ticarət dövriyyəsinin artırılması üçün əhəmiyyətli imkanlar var".

# Mərkəzi Bank illik inflyasiyanı açıqlayıb

Bu ilin yanvar ayında 12 aylıq inflyasiya 5,4 faiz olub. İllik qiymət artımı bu dövrdə ərzaq malları üzrə 5 faiz, qeyri-ərzaq malları üzrə 2,6 faiz, xidmətlər üzrə 8,4 faiz təşkil edib. İllik baza inflyasiya isə 4,3 faiz olub.

Azərbaycan Mərkəzi Bankından bildirilib ki, son aylarda inflyasiyaya təsir edən xarici amillərdə ümumilikdə sabitlik müşahidə olunub.

Beynəlxalq Valyuta Fondunun məlumatına görə 2025-ci ilin fevralında əmtəə qiymətləri indeksinin illik artımı 8,5 faiz təşkil edib. Ticarət tərəfdaşlarının orta çəkili illik inflyasiyası cari ilin yanvar ayında ötən ilin eyni ayına nəzərən 10,7 faiz olub. Manatın qeyri-neft-qaz sektoru üzrə nominal effektiv məzənnəsi 2024-cü ildəki 9 faizlik möhkəmlənmənin ardınca 2025-ci ilin ilk 2 ayında 1,5 faiz ucuzlaşıb.

Ümumilikdə, mövcud pul siyasəti inflyasiyanın hədəf diapazonu daxilində saxlanılmasına və inflyasiya gözləntilərinin sabitləşməsinə yönəlib. Mövcud siyasət çərçivəsində baza ssenari üzrə 2025-ci və 2026-cı ildə illik inflyasiyanın hədəf daxilində (4±2 faiz) olacağı proqnozu dəyişməz qalır.

# Azərbaycan enerji məsələləri üzrə konstruktiv dialoqun qlobal mərkəzinə çevrilib

2025-ci il iyunun 3-5-də "Baku Energy Week" (Bakı Enerji Həftəsi) 30-cu yubileyini qeyd edəcək.

"Iteca Caspian"dan bildirilib ki, "Baku Energy Week"in əsas hadisəsi isə 4–5 iyun tarixlərində keçiriləcək Baku Energy Forumudur. Forum enerji sahəsinin əsas iştirakçılarını, aparıcı beynəlxalq ekspertləri, investorları və biznes nümayəndələrini hər il bir araya toplayır.

"Baku Energy Forum" 2025 iştirakçılarına Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) Baş katibi Haysam Əl-Qays salamlama məktubu ünvanlayıb. Onun məktubunda forumun qlobal enerji sektorunda dialoq və əməkdaşlıq üçün mühüm bir platforma olduğu vurğulanır.

***"OPEC və qeyri-OPEC istehsalçıları arasında Əməkdaşlıq Bəyannaməsinin (DoC) vacib iştirakçısı olan Azərbaycan əsas enerji məsələləri üzrə konstruktiv dialoqun qlobal mərkəzinə çevrilib. Bu, COP29-da aydın şəkildə özünü göstərdi və şübhəsiz ki, regionun enerji təqvimində önəmli yer tutan 30-cu Bakı Enerji Forumunda bir daha vurğulanacaq"***, - deyə o salamlama məktubunda bildirib.

Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) Baş katibi Haysam Əl-Qays 2024-cü ildə "Baku Energy Week"in açılışında iştirak edib.

"Baku Energy Week"ə Energetika Nazirliyi dəstək göstərir, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) isə baş tərəfdaş qismində çıxış edir. Bakı Enerji Həftəsinin təşkilatçıları "Iteca Caspian" və onların beynəlxalq tərəfdaşları olan "ICA Events" və "Caspian Event Management FZ-LLC" şirkətləridir. Tədbir Azərbaycan Sərgi Təşkilatçıları Assosiasiyası (ASTA) tərəfindən dəstəklənir.

# "Trans-Xəzər dəhlizində yük həcmi 10 milyon tona çatdırılacaq"



"Hazırda Trans-Xəzər beynəlxalq nəqliyyat dəhlizinin inkişafına böyük diqqət yetirilir".

Bunu Qazaxıstanın Baş nazirinin müavini, xarici işlər naziri Murat Nurtleu Astanada Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ilə apardığı danışıqlardan sonra jurnalistlər üçün keçirilən brifinqdə deyib.

Onun sözlərinə görə, ötən il bu dəhliz vasitəsilə yük daşımaları 4,5 milyon tona çataraq 62 faiz artıb. "Gələcəkdə bu rəqəmi 10 milyon tona çatdırmaq nəzərdə tutulur. Bu istiqamətdə "Middle Corridor Multimodal Ltd" birgə müəssisəsinin səmərəli fəaliyyəti mühüm rol oynayacaq", – deyə nazir vurğulayıb.

Trans-Xəzər beynəlxalq nəqliyyat marşrutu, həmçinin Orta Dəhliz kimi tanınan bu yol, Çin və Avropa ölkələrini Qazaxıstan, Xəzər dənizi akvatoriyası, Azərbaycan, Gürcüstan və Türkiyə vasitəsilə birləşdirir.

# Qazaxıstan BTC kəməri ilə neftin nəqlini artıracaq



"Qazaxıstan Bakı-Tbilisi-Ceyhan kəməri ilə neft ixracını artırmaq niyyətindədir". AZƏRTAC "Kazinform" informasiya agentliyinə istinadla xəbər verir ki, bu sözləri Qazaxıstanın xarici işlər naziri Murat Nurtleu azərbaycanlı həmkarı Ceyhun Bayramovla Astanada keçirilən görüşdən sonra jurnalistlərə müsahibəsində deyib.

Qazaxıstanlı nazir qeyd edib: ***"Biz Qazaxıstanın enerji resurslarının Azərbaycan vasitəsilə dünya bazarına tədarükü ilə bağlı razılaşmalarımızı uğurla həyata keçiririk. Ötən il Bakı-Tbilisi-Ceyhan kəməri ilə 1,4 milyon ton neft nəql edilib. Gələcəkdə Qazaxıstan neftinin tranzitini ildə 2,2 milyon tona çatdırmağı planlaşdırırıq".***

Murat Nurtleu vurğulayıb ki, Qazaxıstan azərbaycanlı tərəfdaşları ilə birgə xaricə uranın stabil tədarükünü davam etdirir. O əlavə edib: "Qazaxıstanın enerji resurslarının nəqli və Xəzər dənizi vasitəsilə infrastruktur layihələrinin həyata keçirilməsi Cənubi Qafqaz və Mərkəzi Asiya arasında mühüm əlaqə rolunu oynayır".

# Macarıstanda Azərbaycandan Avropa ölkələrinə qaz tədarükünün perspektivi dəyərləndirilib



Macarıstanın paytaxtı Budapeştdə yaşıl enerjinin inkişafı və ötürülməsi layihəsi üzrə nazirlərin 10-cu iclası çərçivəsində energetika naziri Pərviz Şahbazov Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto ilə görüşüb.

Energetika Nazirliyindən bildiriblər ki, görüşdə "Xəzər-Qara dəniz-Avropa Yaşıl Enerji Dəhlizi" layihəsinin həyata keçirilməsindən irəli gələn məsələlər, ikitərəfli enerji əməkdaşlığının prioritetləri müzakirə edilib.

Enerji təchizatı ilə bağlı müasir reallıqlar şəraitində Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında ölkəmizin, Cənubi Qaz Dəhlizinin mühüm rolu vurğulanıb. Azərbaycandan Avropa ölkələrinə qaz tədarükünün perspektivi dəyərləndirilib, qaz ehtiyatlarının işlənilməsi və infrastrukturun genişləndirilməsinin mühümlüyü qeyd olunub. Enerji təchizatının diversifikasiya zərurətinin qazla bağlı məsələlərə rasional yanaşmanı tələb etdiyi bildirilib.

Peter Siyarto Cənub Qaz Dəhlizi Məşvərət Şurasının aprel ayında keçiriləcək növbəti iclasında təbii qaz və yaşıl enerji ilə bağlı müzakirələrdə fəal iştiraka dəvət edilib.

Söhbət zamanı, həmçinin Macarıstanın "MOL Group" və MVM şirkətləri ilə həyata keçirilən və planlaşdırılan layihələrə dair fikir mübadiləsi aparılıb.

# DGK sədri Sinqapur nümayəndə heyətinin başçısı ilə görüşüb

Vyanada səfərdə olan Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov martın 10-da BMT-nin Narkotik Vasitələr üzrə Komissiyasının 68-ci sessiyasında Sinqapur nümayəndə heyətinin rəhbəri, Sinqapurun Daxili İşlər və Milli İnkişaf Nazirliyinin dövlət naziri Muhammad Faysal İbrahimlə görüşüb. Görüş zamanı narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə beynəlxalq əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olunub.

# Zakir İbrahimov 4-cü "Yüksəliş" müsabiqəsinin qalibləri ilə görüş keçirib



"AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) İdarə Heyətinin sədri Zakir İbrahimov 4-cü "Yüksəliş" müsabiqəsinin Mentorluq proqramı çərçivəsində layihə qalibləri Aslan Həsənli və Rüfət Məmmədxanlı ilə görüşüb.

Zakir İbrahimov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə təsis edilən "Yüksəliş" müsabiqəsinin innovativ yanaşma ilə intellektual səviyyəsi və idarəçilik keyfiyyətləri yüksək olan perspektiv rəhbər şəxslərin müəyyən edilməsinə, dəstəklənməsinə və ölkədə kadr bankının yaradılmasına əhəmiyyətli töhfə verdiyini vurğulayıb.

Z.İbrahimov tanışlıq xarakteri daşıyan görüşdə mentorluq proqramının iştirakçılarını dövlət tərəfindən yaradılmış bu şansdan düzgün istifadə edərək, yüksək rəqabət şəraitində keçən müsabiqədə qaliblər sırasında yer almaları münasibətilə təbrik edib.

Sədr qaliblərə praktiki fəaliyyətə cəlb olunmaqla mövcud potensiallarının inkişafı, peşəkarlıq vərdişləri və idarəçilik sahəsində təcrübələrinin artırılması üçün zəruri dəstək göstəriləcəyini qeyd edib, "AzerGold" QSC-nin fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verib.

Görüşdə həmçinin Mentorluq proqramı çərçivəsində görüləcək işlər, fərdi inkişaf planları müzakirə edilib.

"Yüksəliş" müsabiqəsinin qalibləri isə öz çıxışlarında yaradılan imkan və səmimi görüşə görə təşəkkürlərini bildirib, həyata keçiriləcək proqramın onların fərdi inkişafına mühüm töhfə verəcəyinə inandıqlarını vurğulayıblar.

# Mühasiblərin və auditorların peşə fəaliyyətinin etik bünövrəsi: Beynəlxalq Etika Məcəlləsi

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə uğurla reallaşdırılan iqtisadi islahatlar, o cümlədən sahibkarlığın inkişafı ilə bağlı dövlət proqramlarının həyata keçirilməsi, əhalinin həyat səviyyəsinin yüksəldilməsi, kölgə iqtisadiyyatının azaldılması və korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, idarəetmə sistemində və bütövlükdə iqtisadi-sosial həyatda şəffaflıq amilinə xüsusi önəm verilməsi Azərbaycanda dayanıqlı və inklüziv iqtisadiyyatın durmadan inkişaf etməsi üçün zəmin yaradır. Sosial-iqtisadi islahatların mühüm amillərindən biri olan şəffaflığın təmin olunması istiqamətində müstəqil audit də özünəməxsus rol oynamaqdadır. Bununla belə, Azərbaycanda müstəqil auditin qarşısında duran problemlər yeni dövrün çağırışları nəzərə alınmaqla müasir və dünya təcrübəsinə əsaslanan yanaşmanın tətbiqini ön plana çəkir.***

Ölkə prezidenti dəfələrlə imzaladığı sənədlərdə, çıxışlarında və nitqlərində beynəlxalq standartların tətbiqinin zəruriliyini vurğulamışdır. Buna misal olaraq şəffaflıq və idarəetmənin gücləndirilməsi, insan hüquqlari və demokratiya, ətraf mühit və davamlı inkişaf, təhlükəsizlik və hüquq-mühafizə, beynəlxalq iqtisadi əməkdaşlıq və digər sahələri göstərmək olar. Xüsusi olaraq qeyd edilməlidir ki, ölkə prezidenti Azərbaycanın maliyyə sistemində şəffaflığın və səmərəliliyin artırılması mövzusunu daim diqqət mərkəzində saxlayır. Bu, xüsusilə dövlət büdcəsinin daha şəffaf şəkildə hazırlanması və maliyyə hesabatlarının beynəlxalq standartlara uyğunlaşdırılması ilə əlaqədardır. Məsələn, 2019-cu ildə keçirilən Beynəlxalq Maliyyə və İqtisadi Forumunda Prezidentin çıxışında dövlət büdcəsi və maliyyə idarəçiliyinin şəffaflıq və beynəlxalq mühasibatlıq standartlarına uyğun olmasının vacibliyi xüsusi qeyd etmişdir. Eyni zamanda Azərbaycan Prezidenti dövlət maliyyəsinin idarə olunmasına, maliyyə hesabatlarının şəffaflığının təmin edilməsinə, auditor fəaliyyətinin beynəlxalq standartlara müvafiqliyinə böyük əhəmiyyət vermişdir.

"Azərbaycan Respublikasının iqtisadiyyatı inkişaf etdikcə və onun dünya təsərrüfat sisteminə inteqrasiyası gücləndikcə iqtisadi-maliyyə münasibətlərində şəffaflığın təmin olunmasında, iqtisadi cinayətkarlığa və korrupsiyaya qarşı mübarizədə auditin imkanlarından daha geniş istifadə etmək zərurəti yaranır. Bunun üçün müstəqil maliyyə nəzarəti sahəsində mütərəqqi dünya təcrübəsini öyrənmək və milli iqtisadiyyatın xüsusiyyətlərini nəzərə almaqla ölkəmizdə tətbiqini genişləndirmək çox vacibdir. Audit sisteminin beynəlxalq təcrübə və standartlar əsasında təkmilləşdirilməsi ölkə iqtisadiyyatında maliyyə şəffaflığını, büdcə vəsaitlərindən təyinatına uyğun istifadəni təmin etməklə, Azərbaycanın iqtisadi qüdrətinin möhkəmləndirilməsinə xidmət edir" (Azərbaycan Respublikası Auditorlar Palatasının kollektivinə və üzvlərinə, 4 aprel 2006-cı il).

Ölkə prezidentinin proqram xarakterli tapşırıqlarının icrasını təmin etmək məqsədilə Auditorlar Palatası respublikamızda beyəlxalq audit standartlarının tətbiqinə keçid məqsədilə auditor xidmətinin təşkili və tənzimlənməsi, kadr hazırlığı, metodi təminat, keyfiyyətə nəzarət sistemlərinin beynəlxalq tələblərə uyğunlaşdırılması sahəsində islahatları həyata keçirmiş və 2010-cu ilin 1 yanvar tarixində ölkəmizdə Beynəlxalq Audit Standartlarının tətbiqinə keçilmişdir. Bu məqsədlə Palata tərəfindən Beynəlxalq Mühasiblər Federasiyasının beynəlxalq audit, təhisil, keyfiyyətə nəzarət, araşdırma və intizam tədbirləi standartlari, etik qaydalar və digər sənədlər tərcümə və nəşr eidlmişdir.

*Əminliklə demək olar ki, mühasiblərin və auditorların peşə fəaliyyətlərindəki davranış qaydalarını müəyyən edən əsas sənəd Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsidir.*

Azərbaycan Respublikasının Auditorlar Palatasının 2003-cü ildən üzv olduğu Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) qəbul etdiyi və Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurası (IESBA) tərəfindən hazırlanmış bu sənəd, mühasiblər üçün etik peşə davranış normalarını müəyyən edir. Bu qaydalar peşəkar mühasiblərin, eləcə də auditorların fəaliyyətində etik davranışları təşviq edir və onların fəaliyyətlərini beynəlxalq standartlara uyğunlaşdırılmasını təbliğ edir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin şəffaflığın artırılması və maliyyə nəzarətinin gücləndirilməsi sahəsində Beynəlxalq Audit Standartlarının tətbiqinin zəruriliyi və xüsusi əhəmiyyəti barədə proqram xarakterli tövsiyələrini rəhbər tutaraq, Auditorlar Palatası tərəfindən Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) üzvlük tələblərinin icrasını təmin etmək məqsədilə, Məcəllə son 25 ildə 3 dəfə tərcümə edilmiş və bütün maraqlı tərəflərə çatdırılmışdır. Hələ Azərbaycanda müstəqil audit sistemi yeni təşəkkül tapdığı dövrlərdə, yəni 1996-2000-ci illərdə həmin məcəllə əsasında auditorların etika məcəlləsi hazırlanmış və milli standart kimi qəbul edilmişdir. O dövrdə, Azərbaycanda audit təcrübəsinin yeni formalaşdığı şəraitdə bu sənəd auditor və müfəttişlər, təftişçilər arasındakı konseptual fərqləri yetərincə açıqlamış və ilk növbədə audit sifarişçiləri arasında, bütövlükdə isə maraqlı tərəflər və ictimaiyyət arasında auditlə bağlı düzgün təsəvvür formalaşmasında öz töhfəsini vermişdir.

Auditorlar Palatasının Beynəlxalq Mühasiblər Federasiyasında tam üzvlük statusu isə bu sahədə daha ciddi öhdəliklər yaratmışdır. Ona görə də Beynəlxalq Mühasiblər Federasiyasının tərcümə strategiyasına uyğun olaraq Məcəllənin tərcüməsi, redaktəsi və nəşri üçün müvafiq hüquq əldə edilməklə, həmin sənəd milli standart kimi yox, beynəlxalq səviyyəli mühüm bir sənəd kimi nəşr edilmişdir. Sual yarana bilər ki, eyni sənədin təkrar nəşrlərinin səbəbi nədir? Açıqlamaq istərdim ki, həm bu Məcəllə, həm də Beynəlxalq Mühasiblər Federasiyası tərəfindən tanınan bir sıra beynəlxalq standartlar dövri olaraq yenilənən və müasir dövrə uyğunlaşdılır. Belə sənədlərə misal olaraq, Beynəlxalq Audit Standartları ilə yanaşı Beynəlxalq Təhsil Standartlarını, İctimai Sektor üçün Maliyyə hesabatlarının Beynəlxalq Standartlarını, Beynəlxalq Keyfiyyətin İdarə Edilməsi Standartlarını göstərmək olar. Bu yenilənmə eyni zamanda etik davranış qaydalarına da aiddir. Əhəmiyyəti nəzərə alınaraq, 2017-2018-ci illərdə Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin "Beynəlxalq Müstəqillik Standartları" başlıqlı tam bir hissə əlavə edilmiş və həmin yenilənmə sırf auditor fəaliyyətinə həsr olunmuşdur. Bununla da, əvvəllər mövcud olmuş mühasib (accounting) ifadəsinin beynəlxalq anlamda həm də auditora aid olması ilə bağlı fərqli yanaşmalar aradan qaldırılmışdır.

**Peşəkar mühasiblərin beynəlxalq etika məcəlləsi və beynəlxalq müstəqillik standartlarının əsas məqsədi mühasiblərin və auditorların peşəkar fəaliyyətində yüksək etik və peşəkar standartları təmin etməkdir. Bu məcəllə, mühasiblərin davranışlarını tənzimləyən qaydalar müəyyən edir və onların müstəqilliyini qorumağa kömək edir. Məqsəd aşağıdakılardır:**

- **Etik prinsiplərin qorunması:** Məcəllə mühasiblərdən etik prinsiplərə riayət etmələrini tələb edir. Bu prinsiplər arasında dürüstlük, obyektivlik, peşəkar davranış, etibarlılıq və şəffaflıq yer alır.






**Nəcəf Talıbov,
Azərbaycan Respublikası
Auditorlar Palatası sədrinin
elmi-metodik məsələlər
üzrə müşaviri**

Mühasiblər bu prinsiplərə əməl etməklə öz fəaliyyətlərinin etibarlılığını artırırlar.

- **Müstəqilliyin qorunması:** Auditorların və mühasiblərin müstəqil olmalarını təmin etmək məqsədi güdülür. Məcəllə mühasiblərin və auditorların müstəqil qalmasını və maraq toqquşmalarından qaçmalarını tələb edir. Bu, maliyyə hesabatlarının düzgünlüyünü və etibarlılığını təmin edir.
- **Beynəlxalq standartların tətbiqinin təmin edilməsi:** Bu məcəllə mühasiblər və auditorlar arasında beynəlxalq səviyyədə vahid etik və peşəkar standartların tətbiqini təmin edir. Bu, müxtəlif ölkələrdə fəaliyyət göstərən mühasiblər arasında əməkdaşlığın və müştəri etibarının güclənməsinə səbəb olur.

**Peşəkar mühasiblərin beynəlxalq etika məcəlləsinin və müstəqillik standartlarının əhəmiyyəti çox genişdir və həm peşəkar mühasiblər, həm də geniş ictimaiyyət üçün müxtəlif faydalar təmin edir:**

- **Etibarlılıq və keyfiyyət:** Məcəllə mühasiblərin və auditorların fəaliyyətinin etibarlı və keyfiyyətli olmasını təmin edir. Müstəqillik və etik qaydalara riayət edilməsi, maliyyə hesabatlarının düzgünlüyünü və hesabatların keyfiyyətini artırır. Bu, mühasiblərin və auditorların daha yüksək etibar qazanmasına səbəb olur.
- **Hesabatlılıq və şəffaflıq:** Beynəlxalq etika məcəlləsi mühasibləri şəffaf və hesablı fəaliyyət göstərməyə təşviq edir. Şəffaflıq mühasibat hesabatlarının doğru və düzgün olmasına kömək edir, bununla da maliyyə məlumatları istifadəçiləri üçün daha etibarlı olur. Bu xüsusiyyət bütün maraqlı tərəflər, o cümlədən vergi ödəyiciləri üçün xüsusilə vacibdir.
- **İqtisadi sabitlik və dayanıqlılıq:** Etibarlı və düzgün maliyyə hesabatları iqtisadi sabitliyin təmin edilməsində mühüm rol oynayır. Məcəllə, mühasiblərin müstəqil və etik qaydalara əsaslanaraq fəaliyyət göstərməsini təmin edərək maliyyə bazarlarının dayanıqlılığını gücləndirir. Nəticədə, iqtisadi böhranların və maliyyə manipulyasiyalarının qarşısını almağa kömək edir.
- **Hüquqi və peşəkar müdafiə:** Məcəllə mühasibləri etik qaydalara riayət etməyə təşviq edir və hər hansı bir hüquqi və peşəkar məsuliyyətin qarşısını alır. Mühasiblərin və auditorların etik davranışları, onların hüquqi müdafiəsini də təmin edir, çünki etikasız və ya qeyri-etik fəaliyyətlər, mühasiblər üçün ciddi hüquqi və peşəkar nəticələr doğura bilər.
- **Qlobal əməkdaşlıq və dürüstlüyə təşviq:** Məcəllə beynəlxalq səviyyədə mühasiblər arasında əməkdaşlığı təşviq edir. Mühasiblər, müxtəlif ölkələrdə fəaliyyət göstərsələr də, vahid etik və müstəqillik prinsiplərinə riayət edərək müştərilərinə daha etibarlı xidmət göstərirlər. Bu, qlobal iqtisadiyyatın təmizliyini və dayanıqlılığını artırır.

**Məcəllənin peşəkar mühasiblər və auditorlar üçün aşağıdakı aspektlərdə əhəmiyyətlidir:**

- **Peşəkar etika və qaydalara riayət edilməsi:** Beynəlxalq Etika Məcəlləsi mühasiblərin və auditorların peşəkar fəaliyyətlərini etik prinsiplər əsasında təşkil etmələrini təmin edir. Məcəllə, mühasiblərin müstəqil və dürüst olmasını, maraq toqquşmalarından qaçmasını və müştərilərinə qarşı şəffaflıq göstərməsini tələb edir. Bu, auditorların və mühasiblərin etibarını gücləndirir və müştəri ilə peşəkar münasibətləri tənzimləyir.
- **Peşəkar müstəqillik:** Məcəllə mühasiblərdən müstəqil olmalarını tələb edir. Auditorların və mühasiblərin müstəqil olmaları, onların verdikləri rəylərin və hesabatların obyektivliyini və etibarlılığını təmin edir. Müstəqillik həmçinin, maliyyə hesabatlarında və auditlərdə yüksək keyfiyyətin qorunmasına kömək edir.
- **Peşəkar davranışın yüksəldilməsi:** Məcəllə mühasiblərdən yüksək peşəkar davranış tələb edir. Bu, mühasiblərin həm daxili, həm də xarici tərəfdaşlar ilə münasibətlərini daha sağlam və etibarlı edir. Məcəllənin tətbiqi, mühasiblərin peşəkar işlərini mükəmməl şəkildə yerinə yetirmələrinə imkan verir.
- **İntizam və tənbeh tədbirləri:** Məcəllə, mühasiblər üçün ciddi intizam qaydaları təyin edir. Bu, qeyri-peşəkar və etik olmayan davranışların qarşısını alır. Mühasiblər və auditorlar, müəyyən edilmiş qaydalara riayət etmədikləri təqdirdə, intizam və hüquqi məsuliyyətlə üzləşə bilərlər.

**Dövlət orqanları üçün əhəmiyyətlilik:**
**Beynəlxalq Etika Məcəlləsi dövlət üçün də əhəmiyyətldir:**

- **Maliyyə hesabatlarının etibarlılığı və nəzarəti:** Dövlətl orqanları maliyyə hesabatlarının düzgünlüyünü və etibarlılığını təmin etmək üçün mühasiblərin fəaliyyətini tənzimləmək istəyirlər. Məcəllə mühasiblərin davranışını və audit proseslərini standardlaşdıraraq maliyyə hesabatlarının keyfiyyətini artırır və dövlətin maliyyə nəzarətini yaxşılaşdırır. Dövlət orqanları, etibarlı maliyyə məlumatları əsasında daha düzgün iqtisadi siyasət tətbiq edə bilərlər.
- **Şəffaflıq və hesabatlılıq:** Dövlət üçün şəffaflıq və hesabatlılıq önəmlidir. Beynəlxalq Etika Məcəlləsi mühasibləri şəffaf fəaliyyətə təşviq edir, beləliklə dövlət orqanları iqtisadi fəaliyyətlərin izlənilməsini və mühasibat hesabatlarının düzgün təqdim olunmasını təmin edə bilirlər.
- **Vergilər və iqtisadi dayanıqlılıq:** Məcəllə mühasibləri düzgün vergi hesabatı verməyə təşviq edir. Bu, dövlətin vergi gəlirlərinin artmasına və iqtisadi dayanıqlılığın qorunmasına kömək edir. Dövlə, düzgün vergi ödənişlərini təşviq edərək iqtisadiyyatı daha dayanıqlı edə bilər.

**Vergi Ödəyiciləri üçün əhəmiyyətlilik.**
**Vergi ödəyiciləri beynəlxalq etika məcəlləsinin tətbiqindən birbaşa fayda əldə edirlər:**

- **Düzgün və etibarlı vergi bəyannamələri:** Məcəllə, mühasiblərin vergi ödəyiciləri üçün düzgün və şəffaf vergi bəyanatları hazırlamalarını təmin edir. Bu, vergi ödəyicilərinin qanunlara uyğun olaraq vergi ödəməsini və hər hansı bir qeyri-qanuni və ya yanlış vergi öhdəliklərindən qaçmalarını təmin edir.
- **Mübahisələrin minimallaşdırılması:** Beynəlxalq Etika Məcəlləsi mühasiblərin doğru və etik fəaliyyət göstərməsini tələb etdiyi üçün, vergi ödəyiciləri ilə vergi orqanları arasında mübahisələr azalır. Düzgün və şəffaf vergi bəyannamələri verildikdə, vergi ödəyiciləri üçün hüquqi və maliyyə riskləri minimuma enir.
- **Daha yüksək etibarlılıq:** Vergi ödəyiciləri mühasiblər və auditorlar tərəfindən təqdim edilən xidmətlərə daha çox etibar edirlər, çünki bu xidmətlər Beynəlxalq Etika Məcəlləsinə uyğun şəkildə həyata keçirilir. Bu, vergi ödəyicilərinin mühasiblərə və auditorlara daha çox güvənmələrinə və daha sağlam maliyyə qərarları vermələrinə imkan tanıyır.

**İctimaiyyət üçün əhəmiyyətlilik:**
**Beynəlxalq Etika Məcəlləsinin ictimaiyyətə də bir sıra faydaları vardır:**

- **Maliyyə hesabatlarının dürüstlüyü və etibarlılığı:** İctimaiyyət, mühasiblər və auditorlar vasitəsilə təqdim edilən maliyyə hesabatlarının doğruluğuna əsaslanır. Məcəllə, bu hesabatların keyfiyyətini və etibarlılığını təmin edir, beləliklə ictimaiyyətin maliyyə məlumatlarına daha çox güvənməsi mümkündür.
- **Sosial etika və məsuliyyətli iqtisadi fəaliyyətlər:** Məcəllə, peşəkar mühasibləri sosial və etik məsuliyyətlərə riayət etməyə təşviq edir. İctimaiyyət, etik prinsiplərə uyğun fəaliyyət göstərən mühasiblərdən faydalana bilər, bu da ümumilikdə daha məsuliyyətli və dayanıqlı iqtisadiyyatın yaranmasına səbəb olur.
- **İctimai etimadın artırılması:** Məcəllənin tətbiqi, mühasiblərin və auditorların etibarını artırır. Bu isə ictimaiyyətin bu sahəyə olan güvənini və inamını artırır. Nəticədə, mühasiblər və auditorlar daha yüksək peşəkar standartlarla işləyərək ictimaiyyətin hüquqlarını qorumağa yönəlik fəaliyyətlər göstərə bilərlər.

Azərbaycanda müstəqil auditin qarşısında duran problemlər yeni dövrün çağırışları nəzərə alınmaqla mövcud qabaqcıl dünya təcrübəsinə əsaslanan yanaşmaların tətbiqini ön plana çəkir. Ölkə prezidenti cənab İlham Əliyevin dediyi kimi: "Yeni dövrün çağırışlarını nəzərə alaraq, iqtisadi islahatların indiki mərhələsində audit sistemini yenidən qurmaq, onun təsirliliyini artırmaq və beynəlxalq aləmə inteqrasiyasını gücləndirmək sahəsində çox iş görülməlidir".

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin şəffaflığın artırılması və maliyyə nəzarətinin gücləndirilməsi sahəsində Beynəlxalq Standartlarının tətbiqinə verdiyi tövsiyələri əldə rəhbər tutaraq, Auditorlar Palatası tərəfindən İFAC-dan müvafiq hüquqlar alınmaqla tərcümə və redaktə olunaraq, 2024-cü ilin 15 dekabr tarixində qüvvəyə minən Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsi (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə), auditorların, mühasiblərin və bütövlükdə bütün maraqlı tərəflərin istifadəsi üçün nəşr edilmişdir.

Əminik ki, peşə həyatımızda etik qaydaları özündə ehtiva edən bu sənəd Azərbaycanda mühasiblərə və auditorlara fəaliyyətlərində öz töhfəsini verəcəkdir.

# Sənaye zonalarında istehsal edilən məhsullar 70-dən çox ölkəyə ixrac edilir

Ölkəmizdə sənayenin yeni modellərin tətbiqi ilə inkişafı dayanıqlı iqtisadi artım üçün böyük əhəmiyyət kəsb edir. Bu baxımdan iqtisadi şaxələndirmədə mühüm istiqamətlərdən biri də qeyri-neft sənayesinin inkişafıdır. Bu istiqamətdə yeni istehsal müəssisələri və iş yerləri yaradılır, sənayenin yeni üsul və texnologiyalarla inkişafına, əhalinin məşğulluq səviyyəsinin və rifahının yüksəldilməsinə əhəmiyyətli töhfələr verilir.

İqtisadiyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, dövlət başçısının təşəbbüsü ilə yaradılmış sənaye zonaları yeni dövrdə sənayenin inkişafında mühüm rol oynayır. Sənaye zonalarına daxil olan sənaye parkları və məhəllələri, eləcə də aqroparklar kimi səmərəli mexanizmlər ixracyönümlü məhsulların istehsalının genişləndirilməsinə, innovativ və rəqabətqabiliyyətli sənayenin inkişafına, istehsal sahəsində iş yerlərinin artırılmasına yeni imkanlar açır. Ölkədə 9 sənaye parkı - Sumqayıt Kimya, Balaxanı, Qaradağ, Pirallahı, Hacıqabul, Mingəçevir, Naxçıvan, Ağdam və "Araz Vadisi İqtisadi Zonası" sənaye parkları, 4 sənaye məhəlləsi - Neftçala, Masallı, Sabirabad və Şərur sənaye məhəllələri, həmçinin qeydiyyata alınmış 24 aqropark mövcuddur.

Sənaye parklarında sahibkarlığın inkişafına əlverişli şərait yaradılıb və rezidentlər üçün stimullaşdırıcı mexanizmlər tətbiq olunur. Sənaye parklarının rezidentləri dövlət vəsaiti hesabına hazır infrastrukturla - qaz, işıq, su, kanalizasiya, fiber-optik, daxili avtomobil və dəmir yolları xətləri ilə təmin edilirlər. Rezidentlər qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak, torpaq, gəlir vergilərindən, həmçinin istehsal məqsədilə texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və gömrük rüsumlarından azad olunurlar.

İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan sənaye parklarında tətbiq edilmiş idxal ƏDV-si və gömrük güzəştləri nəticəsində rezidentlər indiyədək 505 milyon manatdan çox, 2024-cü il ərzində isə 44 milyon manatdan artıq vəsaitə qənaət ediblər. Bundan başqa, işğaldan azad olunmuş ərazilərdəki sənaye parklarında əlavə - kommunal xidmətlər üzrə, məcburi dövlət sosial sığorta haqqının subsidiyalaşdırılması, kreditlərin dövlət zəmanəti ilə təmin edilməsi və kredit faizlərinin subsidiyalaşdırılması, həmçinin müəyyən edilmiş bir sıra iqtisadi fəaliyyət sahələri üzrə xammal və materialların idxalının əlavə dəyər vergisi və gömrük rüsumundan azad olunması ilə bağlı güzəştlər tətbiq edilir.

# Tanınmış iqtisadçı alim, səmimi dost, gözəl insan

***"...Azərbaycan alimləri, ziyalıları ölkəmizin, cəmiyyətimizin elitasıdır. Onların dünyagörüşü, mövqeyi, hərəkətləri, fəaliyyəti Azərbaycanın inkişaf dinamikasını, inkişaf perspektivlərini xeyli dərəcədə müəyyən edir". Ölkə Prezidenti cənab İlham Əliyevin bu sözlərini Azərbaycan alimləri sırasında özünəməxsus yer tutan iqtisad elmləri doktoru, professor Natiq Qasımova da şamil etmək olar. N.Qasımov hər bir soydaşımıza örnək olası şərəfli bir ömür yaşayır: müəllim adına ucalıq, şərəf gətirmiş mərhum əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor, "Şöhrət" ordenli, Yazıçılar İttifaqının üzvü Əbülfəz ("Bərəkət") müəllimin və Validə xanımın ailəsində boya-başa çatmış, valideynlərinin şəxsi nümunəsi və zəhmətsevərliyi həyat yolunda ona yol göstərən çıraq olmuş, uşaq yaşlarında qəlbində biliyə və yeniliyə sonsuz həvəs oyatmışdır.***



N.Qasımov 1960-cı ilin mart ayının 19-da Bakı şəhərində, ziyalı ailəsində anadan olmuşdur. 1982-ci ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun (indiki Aqrar Universiteti) iqtisadiyyat fakültəsini və 1992-ci ildə Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunu (indiki Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası) fərqlənmə diplomları ilə bitirmiş, iqtisadçı-təşkilatçı və politoloq ixtisasları almışdır.

Natiq müəllim elmə sıx bağlı insandır. O, 1986-cı ildə namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək, iqtisad elmləri namizədi dərəcəsini almışdır. 1996-cı ildə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən ona dosent elmi adı, 1998-ci ildə iqtisad elmləri doktoru elmi dərəcəsi, 2004-cü ildə isə professor elmi adı verilmişdir.

Natiq Qasımovu başqalarından fərqləndirən bir cəhət isə budur ki, onun elmi fəaliyyəti əmək fəaliyyəti ilə sıx vəhdətdədir. Əmək fəaliyyətinə 1982-ci ildə Azərbaycan ETKT İqtisadiyyatı və Təşkili İnstitutunda kiçik elmi işçi kimi başlayan Natiq Qasımov burada baş elmi işçi vəzifəsinə qədər yüksəlmişdir. Burada o, çox qısa müddətdə özünün potensialını ortaya qoya bilmiş, ona müvafiq vəzifələr tapşırılmışdır. Təsadüfi deyil ki, əmək fəaliyyətinin bir hissəsi məhz elmlə bağlı olan sahələrin payına düşür. N.Qasımov 1988-1993-cü illərdə Azərbaycan İqtisadçılar İttifaqının sədr müavini, 1993-1994-cü illərdə "Azəryeyintisənaye" Elmi-Tədqiqat İnstitutunun direktoru, 1994-1996-cı illərdə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin baş idarə rəisinin müavini, 1996-1998-ci illərdə Azərbaycan Dövlət İqtisad Universitetində dosent, professor, 1998-2000-ci illərdə Əmək və Sosial Problemlər üzrə ET və Tədris mərkəzinin direktoru vəzifəsində çalışmışdır. Elmi-tədris fəaliyyətində əldə etdiyi nailiyyətlərə görə N.Qasımov 2000-ci ildə Beynəlxalq İqtisadçılar İttifaqının və 2005-ci ildə Beynəlxalq Menecment Akademiyasının həqiqi üzvü seçilmişdir.

***Natiq Qasımov 2000-ci ildən 2010-cu ilin aprelinə qədər vergi sistemində xidmət etmişdir. O, 2000-2001-ci illərdə Azərbaycan Respublikası Vergilər Nazirliyinin baş idarəsi rəisinin birinci müavini vəzifəsində çalışmışdır. Əmək fəaliyyətində əldə etdiyi nailiyyətlər ölkə rəhbərliyi tərəfindən də qiymətləndirilmişdir. Belə ki, N.Qasımov Ümummilli lider Heydər Əliyevin 17 yanvar 2002-ci il tarixli sərəncamı ilə Vergilər nazirinin müavini vəzifəsinə təyin edilmişdir.***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 9 fevral 2005-ci il tarixli sərəncamı ilə N.Qasımova 3-cü dərəcəli Dövlət Vergi Xidməti Müşaviri xüsusi rütbəsi verilmişdir. O, 2010-cu ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə «Azərbaycan Respublikası Vergilər Nazirliyinin 10 illiyi (2000 - 2010)» Azərbaycan Respublikasının yubiley medalı ilə təltif olunmuşdur.

***N.Qasımov vergi sistemində Azərbaycan təcrübəsinin öyrənilməsi və təbliği sahəsində fəal iştirak etmişdir. Ümummilli liderimiz Heydər Əliyev tərəfindən müəyyənləşdirilən və inkişafımızın müasir mərhələsində Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilən sosial-iqtisadi inkişaf siyasətinin fəal təbliğatçısı və tədqiqatçısı kimi onun səmərəli fəaliyyəti də təqdirəlayiqdir. O, 115-dən çox elmi-praktiki əsərin müəllifidir və onlardan 15-i monoqrafiya və kitablardır.***

Müəllifi olduğu "Azərbaycanın sosial-iqtisadi inkişafında islahatların rolu", "İpək yolu bəşəriyyətin tərəqqi yoludur", "Ərzaq təhlükəsizliyi problemləri", "Azərbaycanın sosial inkişafında islahatların rolu", "Azərbaycanda bazar münasibətləri şəraitində sosial problemlər", "Heydər Əliyev və sosial-iqtisadi islahatlar", "Vergi sisteminin təkmilləşdirilməsi davamlı prosesdir", "Azərbaycan Respublikasının vergi sisteminin inkişaf problemləri", "Vergi siyasətinin beynəlxalq standartlar səviyyəsinə qaldırılması dahi öndərimiz Heydər Əliyevin xidmətidir", "Heydər Əliyevin vergi konsepsiyası və onun psixoloji əsasları", "Müasir vergi sisteminin formalaşdırılmasında Heydər Əliyevin rolu əvəzedilməzdir", "Azərbaycan və dünya: iqtisadi inteqrasiya məsələləri", "Milli iqtisadi modeldə vergi sisteminin formalaşması və onun inkişaf strategiyası", "Azərbaycan beynəlxalq sistemə sıx inteqrasiya edir", "Müasir iqtisadi şərait yeni yanaşma tələb edir", "Ölkənin iqtisadiyyatı inkişaf etdikcə vergi islahatları da davam etdiriləcək", "Beynəlxalq təcrübəyə əsaslanan milli vergi sistemi təkmilləşdirilməkdədir" və s. kimi ciddi tədqiqat əsərləri ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır. "Vergilər Nazirliyi — 10 il" kitabının işıq üzü görməsində də Natiq Qasımovun təşəbbüsü və böyük zəhməti olmuşdur.

Respublikanın tanınmış iqtisadçılarından olan professor Natiq Qasımov 5 respublika və 3 beynəlxalq elmi-praktiki konfransın keçirilməsində təşkilatçı olub.

N.Qasımov həm respublikada, həm də MDB və Avropa dövlətlərində keçirilən beynəlxalq konfranslarda Azərbaycan iqtisadiyyatının inkişafı, vergi sistemində həyata keçirilən islahatların tətbiqi haqqında məruzələr etmişdir.

Natiq Qasımov 2005-ci ildə Moskvanın "Экономика" nəşriyyatında AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, i.e.d., mərhum professor Aqil Əliyevlə birlikdə ilk olaraq Azərbaycanın iqtisad elminə "Инновации и инвестиции" əsərini bəxş etmişlər.

***Natiq Qasımov 2010-cu ildən etibarən Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) "İctimai idarəetmə və sosial innovasiyalar" kafedrasının professoru vəzifəsində çalışır.***

Natiq müəllim müdrik, özündən çox başqaları haqqında düşünən, mərd, səbirli, intizamlı, öz üzərində müntəzəm çalışan ziyalı kimi daima yeniliyə, həyatın tələbatına uyğun meyil göstərən, həmişə mütaliə edən iqtisadçıdır. O, öz təvəzökarlığı, müsbət əxlaqi keyfiyyətləri və elmi-praktiki biliyi ilə iqtisadçılar ordusu arasında layiqli yerini daim tutmaqdadır.

Hazırda müstəqil, bütöv Azərbaycanda yaşayırıq. Torpaqlarımız işğaldan azad edilmiş, ərazi bütövlüyümüz bərpa edilmişdir. Ali Baş Komandan, cənab prezidentimiz İlham Əliyevin rəhbərliyi altında, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Qarabağ torpağında böyük bərpa quruculuq işləri geniş vüsət alıb. Bütün bunlar iqtisadçı alimlər qarşısında da bir sıra vəzifələr qoyur. Bir tədqiqatçı alim kimi Natiq müəllim də Qarabağ regionunun sosial-iqtisadi problemləri ilə bağlı maraqlı təklifləri, tövsiyələri, mülahizələri ilə dövri mətbuatda mütəmadi olaraq məqalələrlə çıxışlar edir.

Müəllifi olduğu məqalələr arasında son 5 ildə dərc olunmuş "Azərbaycan Respublikasında məşğulluğun və əmək bazarının tənzimlənməsi mexanizmi", "Qarabağın hər bir guşəsini gülüstana çevirək", "Рынок труда. Проблемы и особенности", "Управление человеческими ресурсами в условиях рыночной экономики", "Aqrar sektorun inkişafında yaşıl texnologiyaların tətbiqi imkanları", "Aqrar sektorun inkişafının regionlarda insan kapitalının formalaşmasına təsirinin qiymətləndirilməsi" və digərləri aktuallığı cəhətdən seçilir.

Son dərəcə səmimi, mehriban və eyni zamanda tələbkar olaraq heç kimdən köməyini əsirgəməyən qayğıkeş dost Natiq müəllimin 65 illik yubileyi ərəfəsində onu ürəkdən təbrik edir, uzun ömür, həyatda ən şirin nemət olan cansağlığı, şəxsi həyatında səadət diləyirik!

**Ziyad SƏMƏDZADƏ,**
**Azərbaycan İqtisadçılar İttifaqının sədri, Beynəlxalq İqtisadçılar İttifaqının vitse-prezidenti, millət vəkili, akademik**

# Araz SES-də istehsal edilən enerjinin həcmi açıqlanıb

***Bu ilin yanvar ayında Araz Su Elektrik Stansiyasında istehsal edilən enerjinin həcmi açıqlanıb.***



Bu barədə Trend-in sorğusuna cavab olaraq Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidmətindən məlumat verilib.

Bildirilib ki, bu ilin ilk ayında SES-də 5.044 min kVt/s elektrik enerjisi istehsal olunub.

Xatırladaq ki, ötən il stansiyada istehsal edilən enerjinin həcmi 65.705 min KVt/saat olub.

Qeyd edək ki, Araz Su Elektrik Stansiyası respublikanın ikinci ən böyük çayı olan Araz çayının üzərində, onun sol qolu olan Naxçıvan çayının töküldüyü yerdən 5 km aşağıda Azərbaycan-İran sərhəddində yerləşir.

Layihə gücü 22 meqavat olan stansiya 03 oktyabr 1971-ci ildə zəmanət istifadəsinə, 1973-cü ildən isə tam istifadəyə verilmişdir. Stansiyada il ərzində 86,7 milyon kilovat-saat elektrik enerjisi istehsal edilməsi nəzərdə tutulmuşdur. Stansiya uzun illər əhalinin və ölkə iqtisadiyyatının elektrik enerjisinə tələbatının ödənilməsində mühüm rol oynayıb. İstifadə edilən suya görə stansiya orta təzyiqli, konstruksiyasına görə isə qapalı tipli stansiyalara aid edilir.

# Gürcüstana ixrac edilən elektrik enerjisinin dəyəri 2 dəfədən çox azalıb

Ötən il Azərbaycandan Gürcüstana 1,1 milyard kVt/saat elektrik enerjisi ixrac edilib.



Trend-in Dövlət Statistika Komitəsinin açıqladığı məlumatlar əsasında apardığı hesablamalara görə, bu həcmdə elektrik enerjisinin ixracından əldə olunan gəlir 58,3 milyon ABŞ dolları təşkil edib.

Gürcüstana elektrik enerjisi ixracı əvvəlki illə müqayisədə həcm ifadəsi ilə 934 milyon kVt/saat və ya 45,1%, dəyər ifadəsi ilə 63,1 milyon ABŞ dolları, yaxud da 2,1 dəfə azalıb.

Belə ki, 2023-cü ildə Azərbaycandan Gürcüstana 2,1 milyard kVt/saat həcmində, 121,4 milyon ABŞ dolları dəyərində elektrik enerjisi ixrac edilib.

# Naxçıvan GES-də istehsal edilən elektrik enerjisinin həcmi açıqlanıb

Naxçıvan günəş elektrik stansiyasda bu ilin yanvar ayında 1.720 min kVt-saat elektrik enerjisi istehsal edilib.



Bu barədə Trend-in sorğusuna cavab olaraq Naxçıvan Dövlət Energetika Xidmətindən məlumat verilib.

Bildirilib ki, stansiyada il ərzində 33 milyon kVt-saat elektrik enerjisi istehsal edilməsi nəzərdə tutulub.

Xatırladaq ki, Naxçıvan günəş elektrik stansiyasında ötən il 32.793 min kVt-saat elektrik enerjisi istehsal edilib.

Qeyd edək ki, Babək rayonu ərazisində 20 meqavatt güclü Naxçıvan günəş elektrik stansiyasının tikintisi haqqında Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti ilə Belçika Krallığının "Soltech" şirkəti arasında 7 fevral 2015-ci il tarixdə bağlanmış müqaviləyə əsasən tikinti-quraşdırma işləri həyata keçirilib. 2015-ci iln 30 noyabında istismara verilən 20 MVt gücündə günəş elektrik stansiyasının layihə gücü 2017-ci ilin sentyabr ayının 8-də daha 2 MVt artırılaraq, 22 MVt-a çatdırılıb.

# Rusiya şirkəti Azərbaycanın neft-kimya bazarı ilə əməkdaşlığı bərpa etməyi planlaşdırır

"LQ avtomatika" elmi-istehsalat şirkəti Azərbaycanın neft-kimya bazarı ilə əməkdaşlığı bərpa etməyi planlaşdırır".

Bunu Azərbaycanda Moskva müəssisələrinin biznes missiyası çərçivəsində Trend-ə verdiyi açıqlamada şirkətin sifarişçilərlə iş üzrə şöbəsinin aparıcı mütəxəssisi İrina Bondar bildirib.

*"Biz öz istehsalatımızın lokallaşdırılmasına can atırıq. Biz bundan əvvəl də Azərbaycan bazarında işləmişik, ancaq bəzi səbəblər ucbatından bizim buradakı iştirakımız azalıb. Hazırda biz təmasları bərpa etməkdəyik, belə ki, yerli müəssisələrdə, o cümlədən, SOCAR kimi iri neft şirkətlərində, həmçinin, dövlət strukturlarında, neft-kimya müəssisələrində və digər sahələrdə tələb olunan bütün lazımi imkanlara və avadanlığa malikik",-* deyə Bondar qeyd edib.

O əlavə edib ki, şirkətin məhsulları "SOCAR Polymer" və "SOCAR Carbamide" zavodlarında istifadə oluna bilər.



*"İndi əsas məsələ əlaqələrin qurulması və tərəfdaşlığın formalaşdırılmasıdır – istər vasitəçilər vasitəsilə, istərsə də birbaşa əməkdaşlıq yolu ilə. Məhsullarımız bazarda tələbatlıdır, əsas məsələ düzgün təşkilatlanma və bazara düzgün çıxışdır. Rəqabət qabiliyyətinə gəlincə, Avropa analoqları ilə müqayisədə bizim həllərimiz xeyli ucuzdur və bu da mühüm amildir",* - deyə Bondar vurğulayıb.

# На терминале Кулеви SOCAR построят четыре новых резервуара




На принадлежащем Государственной нефтяной компании Азербайджана (SOCAR) терминале Кулеви планируется строительство четырех новых резервуаров, сообщили в ответ на запрос Trend в SOCAR.
"Получены предложения по модели EPC (инжиниринг, закупки и строительство) для возведения четырех дополнительных резервуаров объемом 20 000 кубометров для хранения нефти и нефтепродуктов. В настоящее время идет их техническая оценка", – отметили в компании.
В SOCAR также сообщили, что в 2024 году через нефтяной терминал Кулеви было перевалено в общей сложности 2,5 миллиона тонн грузов.
"Из этого объема 0,95 миллиона тонн составили грузы азербайджанского происхождения, а 1,55 миллиона тонн – транзитные грузы. Для сравнения, за аналогичный период 2023 года через терминал было перевалено 2,16 миллиона тонн грузов. Таким образом, в 2024 году объем перевалки увеличился на 349 000 тонн по сравнению с 2023 годом", – сообщили в компании.
Отметим, что терминал Кулеви и морской порт, управляемые Государственной нефтяной компанией Азербайджанской Республики, начали работу 16 мая 2008 года. Терминал предназначен для транспортировки углеводородов и нефтехимической продукции. Его услуги включают прием углеводородов и нефтехимических продуктов по железной дороге, транспортировку в резервуары, хранение, погрузку на суда и эксплуатацию портовых сооружений.

# Азербайджан - привлекательный партнер для иностранных инвесторов

Азербайджан продолжает укреплять свою роль на международной арене, предлагая многочисленные возможности для иностранных компаний, в том числе испанских.
Как передает Trend, об этом сказала президент Комиссии по международным связям Конфедерации деловых организаций Марта Бланко в ходе Азербайджано-Испанского бизнес-форума в Баку.
М.Бланко отметила, что Азербайджан обладает рядом конкурентных преимуществ, которые делают ее привлекательной для инвесторов.



"Азербайджан имеет стратегическое расположение, которое служит естественным мостом между Европой и Азией. Также важным фактором является политическая и экономическая стабильность, активные инвестиции в инфраструктуру и процесс трансформации экономики", – сказала она.
По ее словам, страна также имеет квалифицированную и конкурентоспособную рабочую силу, а также свободную торговлю с рядом стран региона.

# Азербайджан создаст совместный фонд с Султанатом Оман



Об этом сказал заместитель министра экономики Азербайджана Эльнур Алиев в ходе Азербайджано-Испанского бизнес-форума в Баку.
Он также отметил, что Азербайджан недавно создал двусторонние и многосторонние фонды с Казахстаном, Узбекистаном, Кыргызстаном и ОАЭ.
"Кроме того, два года назад был основан многосторонний фонд тюркских государств, в котором также участвует Венгрия как представитель Европейского Союза", - сказал он.
Эльнур Алиев подчеркнул, что страна активно развивает не только роль принимающей стороны для инвестиций, но и выступает как инвестор в регионе. За последние годы страна вложила более 20 миллиардов долларов в экономику Турции.
"Такие финансовые возможности открывают перспективы для сотрудничества с Испанией", - добавил он.

# Центральный банк Азербайджана сохранил учетную ставку без изменений

Решением правления Центрального банка Азербайджанской Республики (ЦБАР) учетная ставка сохранена без изменений на уровне 7,25 процента, нижняя граница коридора процентных ставок – 6,25 процента, а верхняя – 8,25 процента.
Как сообщили АЗЕРТАДЖ в ЦБАР, решение сохранить учетную ставку без изменений было принято с учетом того, что фактическая и прогнозируемая инфляция находится на целевом уровне (4±2 процента), а также с учетом мировой экономической ситуации, анализа макроэкономических тенденций и трансмиссии решений в области денежно-кредитной политики в реальный сектор.




# Азербайджан и Казахстан обсудили прокладку глубоководного электрокабеля по дну Каспия

Азербайджан и Казахстан обсудили вопросы реализации крупных стратегических проектов, включая прокладку волоконно-оптической линии связи и глубоководного электрокабеля по дну Каспийского моря.
Как передает Trend, этот вопрос стал частью повестки встречи Президента Казахстана Касым-Жомарта Токаева с министром иностранных дел Азербайджана Джейхуном Байрамовым, который находится в Астане с официальным визитом.
Президент Токаев отметил значимость данной встречи для дальнейшего укрепления многогранных межгосударственных связей.



"Ваш визит имеет большое значение с точки зрения дальнейшего продвижения нашего сотрудничества с братским Азербайджаном. Отношения с Азербайджаном для нас имеют очень важное значение. Мы рассматриваем вашу страну в качестве надежного стратегического партнера и союзника", - подчеркнул он.
Глава МИД Азербайджана выразил благодарность за традиционно теплый прием и подчеркнул динамичное развитие двусторонних отношений.

## В МИРЕ

# США объявили о закрытии более 80% процентов программ USAID

США закрывают 83% программ USAID, которые не отвечают интересам Вашингтона.
Об этом заявил глава Госдепартамента США Марко Рубио.
По его словам, в рамках 5 200 контрактов, которые теперь отменяются, десятки миллиардов долларов были потрачены таким образом, что "не послужили (а в некоторых случаях даже навредили) основным национальным интересам США".
"После консультаций с Конгрессом мы намерены более эффективно управлять оставшимися 18% программ (около 1 000) под руководством Госдепартамента", - добавил он.
Напомним, что в конце февраля администрация Президента Дональда Трампа объявила о прекращении более 90% иностранной помощи, предоставляемой через USAID. Сообщалось, что в общей сложности было аннулировано около 5 800 грантов, а более 500 грантов USAID были заморожены.
В начале марта Верховный суд США отклонил запрос властей о приостановке выплаты около 2 миллиардов долларов иностранным организациям через USAID за уже завершенные проекты.

# Израиль прекратил подачу электроэнергии в сектор Газа

Министр энергетики Израиля Эли Коэн распорядился остановить подачу электроэнергии в сектор Газа, сообщают израильские СМИ, передает Trend.
Согласно информации, поставляемая Израилем электроэнергия



обеспечивала работу опреснительной установки в центральной части анклава.
Сообщается, что основное электроснабжение в Газе осуществляется генераторами, однако уже неделю в сектор не поступает топливо для их работы.

# Трамп: США не хотят больше тратить деньги на поддержку Украины

Президент США Дональд Трамп заявил, что Соединенные Штаты больше не хотят расходовать сотни миллиардов долларов на помощь Украине. По его словам, Вашингтон стремится содействовать прежде всего прекращению кровопролития на Украине. Конфликт уносит жизни россиян и украинцев, сказал Трамп. "Однако это люди, такие же, как вы. Это люди. И мы хотим остановить (военные



действия)", - заверил президент, отвечая на вопросы американских репортеров.
***"И мы также не хотим раздавать миллиарды, сотни миллиардов долларов. Мы уже потратили (на Украину) $350 млрд"***, - подчеркнул глава вашингтонской администрации.
"И не было причины... Этой войны никогда бы не случилось, если бы я был президентом (США в предыдущие четыре года)", - утверждал Трамп.

# Маск сообщил о масштабной кибератаке на платформу «Х»

Сегодня в результате крупномасштабной кибератаки в работе социальной сети «Х» возникли серьезные сбои. Руководитель департамента эффективности и старший советник Президента США Илон Маск сообщил об этом в своем аккаунте на платформе. По его словам, атака была гораздо более скоординированной и масштабной, чем ежедневные киберугрозы, с которыми сталкивается компания.
«На «Х» была совершена крупномасштабная кибератака, которая все еще продолжается. Нас атакуют каждый день, но эта атака была осуществлена с использованием значительных ресурсов. В ней участвует либо большая скоординированная группа, либо целая страна. Мы наблюдаем», — заявил Маск.

# "AzerGold" və Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinin rəhbərliyi qeyri-filiz yataqlarına baxış keçirib



"AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov və Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinin İdarə Heyətinin sədri Samir İdayətov Şəki-Zaqatala iqtisadi rayonunda yerləşən bir sıra qeyri-filiz yataqlarına baxış keçirib, sahələrdə istismar işləri həyata keçirən sahibkarlarla görüşüblər.

Ölkə ərazisində qeyri-filiz faydalı qazıntı yataqlarından istifadə sahəsində idarəetmənin təkmilləşdirilməsi üzrə təkliflərin hazırlanması prosesi çərçivəsində Qax, Oğuz və Qəbələ rayonlarında təşkil edilən görüşlərin məqsədi sahələrdəki mövcud vəziyyətlə əyani tanışlıq, sahibkarların təkliflərinin dinlənilməsi, yeni təşəbbüslərlə bağlı fikir mübadiləsinin aparılmasıdır.

Yerli icra hakimiyyəti orqanlarının səlahiyyətli nümayəndələrinin, həmçinin "AzerGold" QSC-nin prosesə cəlb etdiyi beynəlxalq nüfuzlu "Boston Consulting Group" məsləhətçi şirkətinin təmsilçisinin iştirakı ilə keçirilən görüşlər zamanı qeyri-filiz faydalı qazıntı yataqlarının istismarı ilə əlaqədar sənədləşmə işləri və bazar iştirakçılarının qarşılaşdıqları çətinliklərlə bağlı müzakirələr aparılıb. Görüşlərdə sahibkarların sualları cavablandırılıb, rəy və təklifləri qeydə alınıb. Sahə üzrə ixtisaslaşmış bazar iştirakçıları ilə intensiv görüşlərin davam etdiriləcəyi, təkliflərin təhlil olunacağı vurğulanıb.

Bildirilib ki, aparılan təhlillərin əsas məqsədi bu istiqamət üzrə səmərəliliyin və şəffaflığın artırılması, nəzarət mexanizmlərinin gücləndirilməsi, innovativ yanaşmaların tətbiqi ilə fəaliyyətin ekoloji norma və standartlar və beynəlxalq tələblər əsasında təşkil edilməsi, yerli sahibkarların fəaliyyəti üçün əlverişli şəraitin təmin edilməsi, yeni iş yerlərinin yaradılması ilə regionlarda məşğulluğun artırılmasına töhfələrin verilməsidir.

Qeyd edək ki, "AzerGold" QSC-nin mütəxəssisləri tərəfindən cari ilin əvvəlindən Bakı, Abşeron-Xızı, Quba-Xaçmaz, Qarabağ, Şərqi Zəngəzur və digər iqtisadi rayonlara da səfərlər təşkil edilərək, 70-dən çox yatağa baxış keçirilib.

Xatırladaq ki, Prezident İlham Əliyevin imzaladığı Sərəncama əsasən, "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinə nüfuzlu beynəlxalq məsləhətçi şirkətləri cəlb etməklə qeyri-filiz faydalı qazıntı yataqlarının istismarı sahəsində mövcud vəziyyətin təhlil edilməsi, müvafiq bazarın öyrənilməsi və aparılacaq təhlillərin nəticəsindən asılı olaraq bu sahədə idarəetmənin təkmilləşdirilməsi ilə bağlı təkliflərini dörd ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi tapşırılıb.

Eyni zamanda, QSC beynəlxalq standartlar nəzərə alınmaqla, yerli standartların təkmilləşdirilməsi üçün təkliflərini altı ay müddətində hazırlayıb, Nazirlər Kabinetinə təqdim etməli, bu Sərəncamdan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görməlidir.

# Mərkəzi Gömrük Hospitalının cərrah-transplantoloqları tərəfindən müasir Azərbaycan səhiyyə tarixində ilkə imza atılıb





***Mərkəzi Gömrük Hospitalının Orqan Transplantasiyası şöbəsinin yüksəkixtisaslı cərrah-transplantoloqları tərəfindən həm böyüklərə, həm də uşaqlara qaraciyər və böyrək transplantasiyası əməliyyatları uğurla icra olunur. Əməliyyatdan əvvəl və sonrakı periodlarda cərrah-transplantoloqlarla yanaşı, pasiyentlərə ixtisaslaşmış qastroenteroloq, hepatoloq, nefroloq, eləcə də uşaq hepatoloqu, uşaq nefroloqu tərəfindən ixtisaslaşmış xidmətlər göstərilir.***

2025-ci ilin fevral ayında Mərkəzi Gömrük Hospitalının Orqan Transplantasiyası şöbəsinin cərrah-transplantoloqu, t.ü.f.d., Səhiyyə əlaçısı Mircəlal Kazımi, transplantoloq Kamran Beydullayev tərəfindən hepatit B və hepatit D-yə görə qaraciyər sirrozundan əziyyət çəkən, canlı donoru olmayan 12.10.2002-ci il təvəllüdlü Şərifova Mənzər Yaşar qızına meyit donordan götürülmüş qaraciyər köçürülərək, Azərbaycan səhiyyə tarixində ilkə imza atılıb.

Sevindirici haldır ki, 2023-cü ildən etibarən İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Xidmətlər Zərfi çərçivəsində Mərkəzi Gömrük Hospitalında qaraciyər və böyrək transplantasiyası əməliyyatları müvəffəqiyyətlə icra olunur.

12 dekabr 2008-ci ildə Azərbaycan Respublikası və regionda ilk dəfə qaraciyər transplantasiyası və bu günə qədər 2000-ə yaxın insan üzərində orqan transplantasiyası icra edən komanda Mərkəzi Gömrük Hospitalının Orqan Transplantasiyası şöbəsində uğurla fəaliyyət göstərir.

Uşaq üzərində kifayət qədər təcrübəsi olan anestezioloq və reanimatoloqlardan ibarət briqadanın olması ən kiçik yaş qrupundan olan uşaqlarda da transplantoloji xidmətin göstərilməsinə şərait yaradır. Məhz bu səbəbdən də komandamız tərəfindən 6 aylıq körpəyə qaraciyər transplantasiyası, 4 yaşlı uşağa isə böyrək transplantasiyası uğurla həyata keçirilib. Qürurverici haldır ki, dünya ədəbiyyatında da qəbul olunmuş, eyni seansda 6 yaşlı uşaq üzərində açıq ürək əməliyyatı və canlıdan qaraciyər transplantasiyası Mərkəzi Gömrük Hospitalının Orqan Transplantasiyası şöbəsinin cərrah-transplantoloqu, t.ü.f.d., Səhiyyə əlaçısı Mircəlal Kazımi və transplantoloq Kamran Beydullayev tərəfindən ilk dəfə icra olunub.

Donoru olmayan xəstələrə əməliyyat oluna bilmə şansının verilməsi üçün ölkəmizdə ilk dəfə çarpaz orqan transplantasiyası şöbənin mütəxəssisləri tərəfindən başlanılmışdır. Ölkəmizdə ilk dəfə olaraq canlıdan qaraciyər transplantasiyası zamanı donor əməliyyatı laparoskopik üsulla Mərkəzi Gömrük Hospitalının Orqan Transplantasiyası şöbəsinin transplantoloqu Kamran Beydullayev tərəfindən icra olunub.

**Dilarə Zamanova,**
**Mərkəzi Gömrük Hospitalının**
**PR mütəxəssisi**

# "AzerGold" QSC Beynəlxalq Qadınlar Günü münasibətilə şəhid analarını ziyarət edib



"AzerGold" QSC tərəfindən 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə Daşkəsən rayonunda qeydiyyatda olan şəhid anaları ziyarət edilib.

QSC-nin yerli əhali və icmalarla iş prioritet istiqaməti çərçivəsində təşkil edilən ziyarətin məqsədi ölkəmizin ərazi bütövlüyü uğrunda həyata keçirilmiş hərbi əməliyyatlar zamanı həlak olmuş şəhidlərimizin ailə üzvlərinin daim diqqətdə saxlanılması, onların hərtərəfli qayğı ilə əhatələnməsi istiqamətində dövlətimizin yürütdüyü siyasətə əlavə töhfə verməkdir.

Ziyarət zamanı şəhid anaları və həmçinin onların xanım vərəsələrinə "AzerGold" QSC adından təbrik məktubu, gül buketi və hədiyyə kartı təqdim edilib, şəhidlərimizin xatirəsi dərin hörmət və ehtiramla yad edilib.

# "Bakcell" jurnalist xanımları 8 Mart münasibətilə təbrik edib




İnnovasiya və sürət lideri "Bakcell" jurnalist xanımları 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edib. Şirkət 30-dan çox media nümayəndəsini bir araya toplayaraq, səmimi və qeyri-rəsmi görüş təşkil edib.

Görüşdə "Bakcell"in Korporativ Kommunikasiyalar üzrə direktoru Aysel Süleymanova media sahəsində peşəkarlığı, obyektivliyi və şəffaf informasiyanın yayılmasını təşviq edən bütün xanımları təbrik edərək bildirib: «Qadınların cəmiyyətdəki rolu və uğurları bizi ilhamlandırır. "Bakcell" olaraq biz qadınların peşəkar və şəxsi inkişafına dəstək verməyi prioritet hesab edirik. Onların potensialını reallaşdırması, yeni imkanlar qazanması və öz bacarıqlarını daha da inkişaf etdirməsi üçün daim yanlarında olmağa hazırıq». Həmçinin, tədbirdə xanımlar üçün floristika üzrə master klass keçirilib. Onlar güllərlə kompozisiya qurmağın incəliklərini öyrənib, öz unikal buketlərini hazırlayaraq kreativ yanaşmalarını nümayiş etdiriblər.

Qeyd edək ki, "Bakcell" yarandığı gündən media nümayəndələri ilə sıx əməkdaşlıq edərək, onların fəaliyyətini dəstəkləməyə və jurnalistlərin peşəkar inkişafına töhfə verməyə davam edir.

# ETX: "Azərpoçt"un adından dələduzluq halları var

Son zamanlarda müxtəlif xarici nömrələr vasitəsilə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə məxsus "Azərpoçt" MMC-nin adından vətəndaşlara mesajlar göndərilərək ünvan məlumatlarının düzgün olmaması səbəbindən paketinin çatdırılmadığı və məlumatları yeniləmək üçün saxta keçidə daxil olmaları bildirilir. Bu barədə nazirlik yanında Elektron Təhlükəsizlik Xidməti (ETX) məlumat yayıb.




Bildirilir ki, həmin keçidlərdə vətəndaşların bank kartı və digər fərdi məlumatlarını ələ keçirmək üçün xüsusi bölmələr yaradılıb. ETX vətəndaşlara naməlum mənbələrdən gələn mesajların tərkibindəki keçidlərə daxil olmamağı, bank kartı və digər fərdi məlumatlarını qarşı tərəfə ötürməməyi, rəsmi məlumatları yalnız müvafiq qurumun özündən dəqiqləşdirməyi tövsiyə edir.

# Yeniyetmələrin dərs və gecə vaxtı "TikTok"a girişi məhdudlaşdırılır

"TikTok" sosial şəbəkəsi "Ailə ayarları" bölməsində yeniyetmələrin müəyyən vaxt aralıqlarında tətbiqə girişini məhdudlaşdırmağa imkan verən funksiyanı işə salır.

İndi valideynlər övladları üçün "TikTok"a giriş məhdudiyyəti təyin edə bilərlər – məsələn, dərs saatlarında və ya gecə vaxtı. Valideynlər rəqəmsal detoksun rahat tənzimlənməsi üçün təkrarlanan cədvəl yarada və daha əvvəl tətbiq olunmuş məhdudiyyət dövründə övladlarının tətbiqdən istifadə üçün göndərdiyi sorğuları təsdiq edə bilərlər. Bundan əlavə, "Ailə ayarları"nın yeni funksionallığı valideynlərə övladlarının hesabları barədə daha geniş məlumat əldə etməyə imkan verir. İndi onlar övladlarının "TikTok"-da kimi izlədiyini və onun hesabına kimlərin abunə olduğunu, yeniyetmənin hansı istifadəçiləri blokladığını görə biləcəklər.




"Yaxın aylarda "TikTok" valideyn nəzarəti aktiv edilməsə belə, yeniyetmələrin platformanın İcma Təlimatlarını potensial olaraq pozan məzmun barədə valideynlərinə məlumat verməsinə imkan yaradan funksiyanı da əlavə edəcək", - məlumatda deyilir.

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Elşən Hacızadə, Ədalət Muradov, Bəyalı Ataşov, Vahid Novruzov, Rəsul Balayev, Süleyman Qasımov, Zahid Məmmədov, Elşad Səmədzadə, Qüdrət Kərimov, Məhiş Əhmədov, Aydın Hüseynov, Abbas Əliyev**

**www.iqtisadiyyat.com**

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: +99412 566 09 60**
**Faks: +99412 514 14 27**
**Mühasibatlıq:**
**+99412 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500**